RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 262 (8855) CÜMƏ, 3 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Hərbi zəfərin diplomatik təntənəsi

## Azərbaycanın milli maraqları beynəlxalq birlik tərəfindən etibarlı təmin edilir

Azərbaycan onillər boyu sülh danışıqları aparanda da, 44 günlük müharibə ilə yüz illərin problemlərini həll edəndə də düzgün yerdə, haqlı mövqedə olduğunu bilirdi. Bu müharibə bizə torpaqlarımızı düşməndən təmizləmək, dondurulmuş münaqişənin buzunu əritmək, status-kvonu ortadan götürmək, yeni reallıqlar yaratmaq, ədaləti bərpa etmək üçün lazım idi.

Azərbaycan Prezidenti İlham Əliyev həyata keçirdiyi siyasətlə, imzası qədər mötəbər olan hər sözünə sadiqliyi ilə ölkəmizə bütün dünyada böyük inam, etimad qazandıra bildi. Siyasətdə təmizlik, alicənablıq, sözübütövlük, prinsiplərə sadiqlik mühüm amillərdəndir. Axı indi dünya dəyişir, şərtlər başqalaşır. Yeni maraqlar formalaşır. Gələcəklə bağlı strateji baxışlar müəyyənləşir. Bəşəriyyət, qlobal beyin mərkəzləri mövcud problemlərin həlli üçün yeni yollar axtarır. Yaradıcı güc həyatımıza təptəzə çalarlar gətirir.

Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların davamlı həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, ölkəmizin beynəlxalq münasibətlər sistemində artan nüfuzu müasir Azərbaycanın gerçəkliklərini təşkil edir. Heç şübhəsiz, bütün bu nailiyyətlərin əsasında güclü lider fenomeni dayanır. İndi hər kəs onun da fərqindədir ki, Azərbaycan Prezidenti ən ali dəyərlərə sadiqliyi ilə yanaşı, eyni zamanda milli maraqlar məsələsində güzəştsizliyini dəfələrlə sübuta yetirib. Yarımçıq qalan işlərin, verilən vədlərin sonadək yerinə yetirilməsində qətiyyətli mövqeyini hər zaman ortaya qoyub.

Noyabrın 26-da Soçidə Azərbaycan, Rusiya və Ermənistanın dövlət rəhbərləri arasında keçirilən üçtərəfli görüş Vətən müharibəsindəki qələbəmizdən sonra açıq qalan bir sıra məsələlərin həlli baxımından mühüm əhəmiyyət kəsb etdi. Azərbaycan tərəfi hər zamankı kimi, Soçi görüşündə də yüksək konstruktivlik nümayiş etdirdi. Sülh, əmin-amanlıq, regional əməkdaşlıq, davamlı inkişaf istəyini bir daha diqqətə çatdırdı. "Bizim sözümüz imzamız qədər keçərlidir" kəlmələri ilə müasir dünya siyasətində mərdlik, sözlə əməlin vəhdəti dəyərlərini qoruyaraq Azərbaycan Prezidenti ötən ilin 9 noyabr Bəyanatındakı imzasına da sadiqliyini, regionun gələcək mənzərəsinə aydın baxışını göstərdi. Soçidə aparılan müzakirələr nəticəsində qəbul edilmiş üçtərəfli Bəyanatla Azərbaycan bu görüşü də üstün tərəf kimi başa vurdu.

### Azərbaycan konstruktiv mövqe nümayiş etdirir

Bu görüşlə bağlı əsas gözləntilər Azərbaycan və Ermənistan arasındakı sərhədlərin delimitasiya və demarkasiyası prosesinin başlanması, eləcə də avtomobil və dəmir yollarının açılmasını nəzərdə tutan layihələrlə bağlı idi.

Ardı 6-cı səh.

## Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir



Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Ali Təhsil Şurasının sədri Erol Özvarı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Erol Özvar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Erol Özvar baş vermiş helikopter qəzası zamanı hərbçilərin həlak olması ilə bağlı dövlətimizin başçısına başsağlığı verdi. Prezident İlham Əliyev başsağlığına görə təşəkkür etdi.



Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, təhsil sahəsində əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsində rolu qeyd olundu. Erol Özvarın səfərinin bu sahədə əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edildi.

Söhbət zamanı təhsil sahəsində əməkdaşlığın perspektivləri, o cümlədən ölkəmizdə Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyana

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin müstəqilliyinin 50-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında güclü İslam həmrəyliyinə əsaslanan dövlətlərarası münasibətlər və əməkdaşlıq xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dinamik şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2021-ci il*

◆ **İlə yekun vurulur**

## Azərbaycan neft-qaz sahəsində cari ili də uğurlarla yola salır

### Ölkəmizin yaratdığı beynəlxalq tərəfdaşlıq platforması daha da möhkəmlənib

Neft-qaz diyarı kimi son dövrlər şöhrəti daha da artan ölkəmiz üçün 2021-ci il də uğurlu olub.

Dənizdəki və qurudakı karbohidrogen yataqlarından hasilat ahəngdar davam edib. İxrac marşrutları fasiləsiz və təhlükəsiz işləyib. Yeni layihələrə start verilib. Bunları bir neçə layihə çərçivəsində həyata keçirilən işlərin timsalında da aydın görmək olar.

Bax: səh. 5

## "Növbəti stansiya Şuşa şəhəridir"

### Şuşa və Kəlbəcərə dəmir yolu xəttinin çəkilməsi Qarabağ və Şərqi Zəngəzur bölgələrinin inkişafında müstəsna rol oynayacaq

Azərbaycan öz coğrafi mövqeyinə görə də dünyada əhəmiyyətli yer tutur. Ölkəmiz Şərqlə Qərbi birləşdirən ən qısa tranzit yolu üzərində yerləşir və qədim İpək yolunun Azərbaycandan keçməsi bununla bağlıdır.

Çar Rusiyası tərəfindən Cənubi Qafqazda ilk dəmir yolunun Azərbaycanda tikilməsi barədə qərarın qəbul edilməsi də təsadüfi deyildi.

Bolşeviklər ölkəmizi işğal etdikdən sonra 70 il biz tranzit ərazi kimi hüququmuzu itirmişdik. Daha doğrusu, belə bir imkan əlimizdən alınmışdı. Məhz buna görə də müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycanın ilk qəbul etdiyi qərarlardan biri dünya üçün əhəmiyyətli tranzit ölkəyə çevrilməsi barədə oldu. İndi tarixi İpək yolunun bərpasına ilk təşəbbüs göstərən də, ən çox sərmayə yatıran ölkə də Azərbaycandır.

Bax: səh. 5

## Qiymətlər bahalaşır, gəlirlər azalır, ölkə boşalır

### Ermənistanda miqrasiyanın mənfi saldosu 33 faiz artıb

Ermənistanda ağır sosial-iqtisadi vəziyyət yeni inflyasiya göstəricilərinin fonunda özünü daha qabarıq büruzə verməyə başlayıb. "İravunk" qəzeti son günlərdə mağazalarda qida məhsullarının qiymətinin qalxdığını qeyd edib. Bildirilir ki, oktyabr-noyabr aylarında ölkədə inflyasiya illik hesablama üzrə 9 faizə yaxınlaşıb. Bu halda qida məhsulları üzrə qiymətlərin artımı cari ildə ilk dəfə ikirəqəmli olub və 13,9 faiz təşkil edib.

Oktyabr ayında ərzaq məhsulları və alkoqolsuz içkilərin qiymətləri 16 faiz bahalaşıb ki, bu da son 30 ildə ən yüksək göstəricidir. Bitki yağları və şəkər kimi idxal olunan digər malların qiymətləri son aylar üçqat artıb. Yerli məhsulların yüksək qiymətləri də istehlak səbətinin sadə vətəndaşa daha baha başa gəldiyini göstərir.

Ermənistan Statistika Komitəsinin məlumatına görə, 2021-ci ilin oktyabrında 2020-ci ilin eyni dövrü ilə müqayisədə çörəyin, dənli bitkilərin və unun qiymətləri müvafiq olaraq 11 faiz, 17,3 faiz və 7,2 faiz artıb. Qiymət artımı noyabrda da baş verib, lakin hələlik komitə bununla bağlı məlumat verməyib.

2021-ci ilin sentyabr ayından çörək 30-50 dram bahalaşıb: kiçik bir çörək artıq 140-150 drama satılır. İri tədarükçülər hələlik payızdan əvvəl ölkəyə daha aşağı qiymətlərlə ixrac edilən mövcud ehtiyatlar hesabına kəskin qiymət artımının qarşısını ala bilirlər. Lakin Ermənistanda çörək və unun qiymətinin yenidən yüksəlməsi ilin sonuna kimi qaçılmaz olacaq.

Ardı 5-ci səh.

# Prezident İlham Əliyev dünyaşöhrətli alim Əziz Səncəri qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də ABŞ-ın Şimali Karolina Universitetinin biokimya və biofizika fakültəsinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı, DNT sahəsində mühüm kəşfləri ilə tanınan, ABŞ Milli Elmlər Akademiyasının üzvü, dünyaşöhrətli alim Əziz Səncəri qəbul edib.

AZƏRTAC xəbər verir ki, Əziz Səncər Vətən müharibəsində Qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik etdi və bu Qələbədən bütün türk dünyasının qürur hissi keçirdiyini dedi.

Dövlət başçısı təbriklərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Vətən müharibəsi zamanı Əziz Səncərin Azərbaycanın haqlı mövqeyini şəxsən dəstəkləməsini və təbrik etməsini yüksək qiymətləndirərək bunun ölkəmizin haqq səsinin dünyada ucaldılması işinə xidmət etdiyini vurğuladı.



Dövlət başçısı müharibə dövründə ermənilərin Gəncəni raket atəşinə tutması nəticəsində valideynlərini itirmiş uşağa Əziz Səncərin yardım etməsini xatırladaraq, bunu böyük insanpərvərlik nümunəsi kimi qiymətləndirdi. Əziz Səncəri türk dünyasının önəmli şəxsiyyəti kimi dəyərləndirən Prezident İlham Əliyev onun ölkəmizə səfərə gəlməsindən məmnunluğunu bildirdi və Azərbaycan xalqının ona həm bir alim, həm də bir vətənpərvər insan kimi böyük hörmət və sevgi bəslədiyini xüsusi olaraq vurğuladı.

Sonda xatirə şəkli çəkdirildi.

## "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497; 1999, № 5, maddə 285; 2001, № 3, maddələr 141, 142, 143, 144, № 11, maddələr 672, 687, 693; 2002, № 5, maddələr 240, 244, № 6, maddə 328; 2003, № 6, maddə 256; 2004, № 4, maddə 199, № 6, maddə 396, № 7, maddə 507; 2006, № 2, maddə 66, № 12, maddə 1028; 2007, № 6, maddə 560, № 11, maddə 1052, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2009, № 2, maddə 46, № 12, maddə 949; 2010, № 11, maddə 962; 2011, № 2, maddələr 70, 71, № 7, maddə 616; 2012, № 6, maddə 510; 2013, № 11, maddələr 1285, 1305, 1316; 2015, № 2, maddə 104, № 4, maddə 345, № 6, maddə 681; 2016, № 2 (I kitab), maddə 189, № 4, maddə 658; 2017, № 6, maddə 1060, № 7, maddə 1262; 2019, № 2, maddə 180, № 9, maddə 1484; 2020, № 5, maddə 521, № 7, maddə 826, № 12 (I kitab), maddə 1425; 2021, № 6 (I kitab), maddə 542, № 8, maddə 897) 10-cu maddəsinin üçüncü - on birinci hissələri müvafiq olaraq dördüncü - on ikinci hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfinə daxil olmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin Qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2021-ci il*

## "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 29 oktyabr tarixli 392-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli və "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 29 oktyabr tarixli 392-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində "orqan (qurum)" dedikdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki dövlət tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər dövlət tibb müəssisələrinə münasibətdə isə tabe olduqları dövlət orqanları (qurumları) nəzərdə tutulur.

2. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 498; 2007, № 11, maddə 1114; 2009, № 12, maddə 977; 2011, № 2, maddə 84; 2014, № 3, maddə 242; 2017, № 6, maddə 1116, № 7, maddə 1317; 2020, № 6, maddə 690, № 7, maddə 881, № 12 (I kitab), maddə 1501; 2021, № 6 (I kitab), maddə 567) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci abzasa "11-ci" sözlərindən əvvəl "10-cu maddəsinin üçüncü hissəsində," sözləri əlavə edilsin;

2.2. dördüncü abzasda "ikinci və onuncu hissələrində" sözləri "on birinci hissəsində" sözləri ilə əvəz edilsin;

2.3. on ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda on üçüncü abzas əlavə edilsin:

"həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində "orqan (qurum)" dedikdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki dövlət tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər dövlət tibb müəssisələrinə münasibətdə isə tabe olduqları dövlət orqanları (qurumları) nəzərdə tutulur.".

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1639; 2019, № 2, maddə 219; 2020, № 6, maddə 690, № 12 (I kitab), maddə 1483; 2021, № 6 (I kitab), maddə 570) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 3.1.11-2-ci yarımbənd əlavə edilsin:

"3.1.11-2. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xidmətlər zərfinə daxil olmayan və TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin Qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini təsdiq edir;";

3.2. 3.2.8-ci yarımbənd ləğv edilsin;

3.3. 5.5-ci bənddə "Prezidenti" sözü "Nazirlər Kabineti" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 29 oktyabr tarixli 392-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2021-ci il*

# Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələri mehribanlıq və əmin-amanlıq şəraitində yaşayırlar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda tarixən mövcud olan tolerant mühit, bütün xalqların və dinlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının ölkəmizdə bir ailə kimi mehribanlıq və əmin-amanlıq şəraitində yaşaması məmnunluqla vurğulanıb.

Digər dini və etnik icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasına dövlət səviyyəsində yaradılan şərait və göstərilən diqqət, qayğı yüksək qiymətləndirilib, yəhudilərin ölkəmizin ictimai həyatında fəal iştirakı qeyd edilib.

Söhbət zamanı Bakıda keçirilən və Mark Şnayerin iştirak etdiyi "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumu Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi növbəti töhfə kimi dəyərləndirilib.

## "Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 322) aşağıdakı məzmunda 8.1-1-ci bənd əlavə edilsin:

"8.1-1. bu Fərmanın 7.2-ci və 7.3-cü bəndləri icra olunanadək, qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsinin müvəqqəti qaydasını, qrant məbləğinin müəyyən edilməsinin müvəqqəti meyarlarını və hər mövzu üzrə qrant məbləğinin yuxarı həddini, habelə Agentliyin maliyyələşdirdiyi layihələrin əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi, icra olunan layihələrin monitorinqinin və qiymətləndirilməsinin aparılmasının müvəqqəti qaydasını təsdiq etsin;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2021-ci il*

# 2022-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günləri müəyyən edilib

2022-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günləri müəyyən edilib.

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabinetinin "2022-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" Qərarına əsasən, martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, mayın 2, 3-ü Ramazan bayramı, iyulun 9, 10-u Qurban bayramı günləri müəyyən edilib.

Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən həmin günlər iş günü hesab edilmir.

# DSX rəisi şəhid polkovnik Füzuli Cavadovun və kapitan Xəyyam Əliyevin məzarlarını ziyarət edib





Dekabrın 2-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev və qurumun digər vəzifəli şəxsləri DSX-nin hərbi helikopterinin qəzaya uğraması nəticəsində həlak olmuş hərbi qulluqçular - polkovnik Füzuli Cavadovun və kapitan Xəyyam Əliyevin məzarlarını ziyarət edib, onların əziz xatirələrini ehtiramla yad edərək məzarları üzərinə gül dəstələri qoyublar.

Bu barədə AZƏRTAC-a DSX-nin Mətbuat mərkəzindən məlumat verilib.

Hər iki hərbi qulluqçu ailələrinin arzusu ilə müvafiq olaraq, Bakı şəhərinin Zirə və Əmircan qəsəbələrində dəfn ediliblər.

Hərbi qulluqçuların ailələrinə baş çəkilib, onlara başsağlığı verilib.

# Helikopter qəzasında həlak olan hərbçi Beyləqan Şəhidlər xiyabanında dəfn edilib






Helikopter qəzasında həlak olan hərbi qulluqçulardan biri, Dövlət Sərhəd Xidmətinin (DSX) zabiti, şəhid baş leytenant Fərid Nağıyevin cənazəsi onun doğulduğu Beyləqan rayonunun Şərq kəndinə gətirilib.

AZƏRTAC xəbər verir ki, şəhidin cənazəsi izdihamla qarşılanıb. Kənd meydanında cənazə namazı qılınıb. Şəhid pilot Fərid Təyyar oğlu Nağıyev Beyləqan Şəhidlər xiyabanında dəfn olunub. Mərasimdə DSX rəsmiləri, şəhidin ailə üzvləri, yaxınları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Bakıda “Mədəniyyət naminə sülh” qlobal kampaniyasının Tərəfdaşlar Forumu keçirilib





Dekabrın 2-də ADA Universitetində “Mədəniyyət naminə sülh” qlobal kampaniyasının Tərəfdaşlar Forumu (“Peace4Culture” Partners Forum) keçirilib.

AZƏRTAC xəbər verir ki, BMT-nin Sivilizasiyalar Alyansı, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO), ADA Universiteti və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşan tədbirdə dövlət rəsmiləri, bir sıra beynəlxalq təşkilatların və sülhün təşviqi üzrə ixtisaslaşmış institutların, diplomatik korpusun rəhbər şəxsləri və nümayəndələri iştirak ediblər.

ADA Universitetinin prorektoru Vafa Kazdal rektor, professor Hafiz Paşayevin adından forum iştirakçılarını salamlayıb. O, belə bir foruma evsahibliyi etməkdən böyük qürur hissi keçirdiklərini bildirərək qeyd edib ki, bu tədbir ADA Universitetinin dünya miqyasında sülhün, əmin-amanlığın qorunmasında üzərinə götürdüyü öhdəçilikdən xəbər verir.

Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə çıxış edərək “Mədəniyyət naminə sülh” kampaniyası haqqında məlumat verib. Bildirib ki, mədəniyyət üçün sülh vacib məfhumdur.

Diqqətə çatdırılıb ki, bu ilin aprel ayında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən “Mədəniyyət naminə sülh” (Peace4Culture) adlı qlobal kampaniya irəli sürülüb. Yeni platforma mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması və beynəlxalq sülh sistemlərinin gücləndirilməsi, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır. Artıq ötən dövr ərzində bir sıra beynəlxalq təşkilat və ölkələrdən bu layihəyə dəstək ifadə olunub.

Şöbə müdiri tədbirin proqramı haqqında məlumat verdikdən sonra forum plenar iclaslarla işini davam etdirib.

“Yalnız mədəniyyətin sülh üçün nə edə biləcəyini deyil, sülhün də mədəniyyət üçün nə edə biləcəyini düşünək” adlı birinci plenar sessiya Mədəniyyət Nazirliyinin Aparat rəhbəri, “Mədəniyyət naminə sülh” qlobal kampaniyası İşçi Qrupunun rəhbəri Vasif Eyvazzadənin moderatorluğu ilə gerçəkləşib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edərək bildirib ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın Qələbəsi ilə başa çatıb. Bu Qələbə Cənubi Qafqaz üçün böyük imkanlar yaratdı: “Məqsədimiz dayanıqlı sülhü təşviq etməkdir. Təkcə ticarət yolları deyil, mədəni tərəfdaşlıq da əsasdır. Azərbaycanın işğal altında olan ərazilərində mədəni irsimiz dağıdılaraq məhv edilib. 30 il müddətində biz BMT və UNESCO-nu bu işə cəlb etmişdik və bu müddətdə UNESCO-nun bu ərazilərə səfərini gözlədik ki, bu təşkilat mədəni irsimizə qarşı törədilən vəhşiliyi beynəlxalq aləmə göstərsin. Bu gün Azərbaycan UNESCO İcraiyyə Şurasına seçilməklə bir daha etibarını göstərdi”.

Hikmət Hacıyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etdiyinə görə ICESCO-nun Baş direktoruna təşəkkürünü bildirib: “Biz Azərbaycanın əsrlərlə yaratdığı digər xalqlara hörmət təcrübəsini paylaşmaq istəyirik. Bu mənada “Mədəniyyət naminə sülh” platforması çox vacib əhəmiyyət daşıyır”.

Daha sonra BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Angel Moratinosun videomüraciəti dinlənilib. Ali nümayəndə Sivilizasiyalar Alyansı ilə Azərbaycanın əlaqələri haqqında fikirlərini bölüşüb. Diqqətə çatdırıb ki, Azərbaycan Mədəniyyət Nazirliyinin bu təşəbbüsü alyansın missiyasına uyğundur: “Bu təşəbbüs davamlı sülh üçün vacib elementləri özündə ehtiva edir. Müxtəlif mədəniyyətlər arasında anlaşma yaradaraq sülhü təbliğ edir. Bu təşəbbüsü həyata keçirmək üçün əl-ələ verərək çalışmalıyıq”.

Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov qonaqları salamlayaraq nazirliyin “Mədəniyyət naminə sülh” təşəbbüsünü doğuran əsaslardan söz açıb: “Biz işğaldan azad olunmuş ərazilərimizə gedən zaman Ermənistan tərəfindən sosial infrastruktura, mədəni mirasımıza qarşı həyata keçirilən vandalizm və talançılığın miqyasını tam şəkildə görə bildik. Başa düşdük ki, bu dağıdılmış infrastrukturu bərpa etmək üçün bizə dayanıqlı sülh lazımdır. Bu səbəbdən də Mədəniyyət Nazirliyi sülhü təşviq etmək üçün yeni təşəbbüslə çıxış etdi”.

Sülh və mədəniyyət arasında mühüm qarşılıqlı əlaqənin olduğunu bildirən Anar Kərimov qeyd edib ki, mədəniyyətin yenidən çiçəklənməsi üçün sülh vacib amildir: “Burada həm də münasibətlərin dirçəlişindən söhbət gedir. İkinci vacib element mədəniyyətin rolunu vurğulamaqdır. Üçüncü element budur ki, Azərbaycan bütün problemlərə rəğmən etnik və mədəni təmizlənməyə baxmayaraq hələ də mədəniyyətin sülhü təşviq edə biləcəyinə inanır. Bu təşəbbüs bölgədə dayanıqlı sülhə yol aça bilər. Azərbaycan uzunmüddətli sülh proqramının qurulmasına cəhd göstərir. 2008-ci ildə bünövrəsi qoyulan “Bakı prosesi” Azərbaycan Prezidenti İlham Əliyevin bütün dünyaya dialoqu təşviq etmək məqsədi daşıyırdı. Bu təşəbbüs böyük qlobal platformaya çevrilə bildi”.

Nazir qeyd edib ki, “Mədəniyyət naminə sülh” platforması bəşəriyyət üçün yeni imkanlar yarada bilər: “Bu təşəbbüsün nəticə verməsi üçün praktiki fəaliyyətlər haqqında düşünürük və artıq işlər tədbirlər planı halına çevrilir. 2022-2027-ci illər üçün nəzərdə tutulan tədbirlər planında 6 istiqamət üzrə fəaliyyət nəzərdə tutulub. Mədəniyyət dili sülhə yol açmaq üçün ən gözəl ideyadır və biz bu imkanlardan istifadə edəcəyik. Beynəlxalq tərəfdaşları bu təşəbbüsləri dəstəkləməyə çağırır və forumun işinə uğurlar arzulayıram”.

Foruma videoformatda qoşulan ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik qlobal təşəbbüsə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. Qeyd edib ki, cəmiyyət olaraq dünyaya sülh toxumları əkilməlidir və mədəniyyətin inkişafı bundan asılıdır. “Azərbaycan Mədəniyyət Nazirliyinin bu ideyası sülh üçün yeni davranışları təşviq edir və biz bu təşəbbüsü dəstəkləyirik. Sülhü qorumaq missiyası çox vacibdir. Mədəniyyət anlamı isə bütün insanları bir araya gətirəcək məfhumdur. İnanıram ki, Azərbaycan bu təşəbbüslə qlobal sülhə öz töhfələrini verəcək”, - deyə Baş direktor bildirib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva türk dünyası mədəniyyətinin təbliği və təşviqinin əhəmiyyətini qeyd edib, fondun bu istiqamətdə həyata keçirdiyi layihələrdən söz açıb: “Əminəm ki, bu platforma mədəni irsin qorunmasına, münaqişə zonalarında həyatın dirçəlməsinə və ən dəyərli ideallarımızın əldə olunmasına kömək edəcək. Bizim beynəlxalq təşkilatımız üçün bu çağırış böyük əhəmiyyətə malikdir və bu gün mən bu işə dəstəyimizi rəsmən bəyan edirəm!”

Tarixi dövrlərdən bəri mədəniyyətin yer üzündə sivilizasiyanı qorumaq üçün əsas amil olduğunu söyləyən G.Əfəndiyeva deyib: “Bu gün dünya mədəniyyətinin tarixi, tolerantlığın yaşamaq, dinc yanaşı yaşamaq, əməkdaşlıq və bəşəriyyətin davamlı inkişafı şəraiti kimi rolu haqqında ümumi biliklərin təkmilləşdirilməsi çox vacibdir”.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun gördüyü işlərdən söz açan Günay Əfəndiyeva bildirib ki, fondun missiyası zəngin türk irsinin öyrənilməsi, qorunub saxlanması, tanıdılması və türk dünyasının mədəni dəyərləri ilə dünya birliyini tanış etməkdir.

“Bu gün bu mövzu bizim üçün aktual maraq kəsb edir, çünki təşkilat böyük “türk ölkələri Böyük İpək Yolu üzərində” layihəsini həyata keçirir”, - deyə fondun prezidenti vurğulayıb.

Günay Əfəndiyeva deyib: “Fəxr edirik ki, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ, eləcə də Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa yenidən öz tarixi günlərini yaşayır. Qarabağ həqiqətlərini dünyaya çatdırmaq, o cümlədən bu regionda yerləşən türk dünyasının tarixi və mədəni abidələrini təbliğ etmək məqsədilə fond müxtəlif tarixi və tədqiqat kitabları nəşr edib, həmçinin “Qarabağın keçmişi, bu günü və gələcəyi” mövzusunda beynəlxalq konfrans keçirib. İnanıram ki, uzun illər işğalçılar tərəfindən vəhşicəsinə ləkələnməyə məruz qalmış tarixi irs bizim birgə səylərimizlə bərpa ediləcək”.

Etnik Anlaşma Fondunun (ABŞ) prezidenti Ravin Mark Şnayer Prezident İlham Əliyevin multikultural dəyərlərə diqqətini xüsusi vurğulayıb. Bildirib ki, Azərbaycanın uğurları onları çox sevindirir: “Bu gün dünyada 57 yəhudi icmasının ən böyüyü Azərbaycanda fəaliyyət göstərir. Müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin bu ölkədə sülh şəraitində yaşaması gözəl nümunədir və biz bu şəraitə görə minnətdarlığımızı bildiririk”.

KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (Avstraliya) baş katibinin müavini Elham Alşeyni forumun təşkilatçılarına minnətdarlığını bildirərək buradakı müzakirələrin regionda sülhü bərqərar edəcəyinə ümidvar olduğunu vurğulayıb. O, rəhbəri olduğu mərkəzin bu təşəbbüsü dəstəklədiyini qeyd edib.

Dünyaşöhrətli Azərbaycan əsilli fotojurnalist Rza Diqqəti bildirib ki, bəşəriyyətdə baş verən müharibə, vəhşilik və qətlləri çəkib ictimaiyyətə nümayiş etməklə insanları sülhə təşviq edə bilərik: “İnsanlara sülhü bəzən şəkil dili ilə də təşviq etmək lazım gəlir. 1992-ci ildə Ermənistanın Xocalıda törətdiyi soyqırımı və ötən il Gəncəyə raket hücumları zamanı lentə aldığım kadrların beynəlxalq aləmdə nümayişi bəşəriyyəti sülhə səsləməklə bərabər, həqiqətləri bəyan etmək baxımından əhəmiyyətli idi”.

Panel iclasın sonunda çıxışçılar sualları cavablandırıblar.

Forum işini günün ikinci yarısında növbəti panel sessiya ilə davam etdirib.

## Hikmət HACIYEV: “Azərbaycan dəfələrlə bəyan edib ki, ərazi bütövlüyü prinsipi əsasında Ermənistanla delimitasiya və demarkasiya prosesinin aparılmasına hazırdır”

Soçi görüşünün nəticələri müsbət qiymətləndirilir. Görüş nəticəsində qəbul edilmiş birgə Bəyanatda xüsusilə nəqliyyat dəhlizlərinin açılması ilə əlaqədar məqamı qeyd etmək istərdim. Bu, xüsusilə Zəngəzur dəhlizi ilə əlaqədar məsələlərdir. Bu xüsusda sənəddə qeyd olunur ki, qısa müddət ərzində Azərbaycan, Ermənistan və Rusiya arasında yaradılmış nəqliyyat məsələləri üzrə işçi qrup çərçivəsində tezliklə görüş keçirilsin. Belə bir görüş də dünən Moskva şəhərində baş tutdu. Bundan irəli gələn digər məsələlər üzrə də tərəflər arasında müxtəlif müzakirələr aparılır.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev bildirib: “Azərbaycan dəfələrlə bəyan edib ki, biz Ermənistanla Azərbaycan arasında sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında sərhədlərimizin delimitasiyası və demarkasiyası prosesinin aparılmasına hazırıq. Burada, ilk növbədə, Ermənistan özü reallığı dərk etməli və başa düşməlidir. Ermənistan işğal siyasətinə görə 30 il ərzində sərhəd fəlsəfəsini və ideyasını başa düşməmək vəziyyətində olub. Belə ki, Azərbaycanın işğal olunmuş əraziləri əsnasında onlar üçün sərhəd sanki təmas xəttindən başlayırdı. Bu da işğalçılıq siyasətinin nəticəsi idi”.



Bu gün yeni reallığın olduğunu deyən Prezidentin köməkçisi qeyd edib ki, indi Azərbaycanın sərhədləri var - Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər istiqamətində ölkəmizin sərhədləri təsbit olunub. Artıq Ermənistan bu sərhədlərə hörmət etməlidir.

Hikmət Hacıyev həmçinin vurğulayıb ki, Soçi görüşündə qəbul olunmuş Bəyanatdan və aparılmış intensiv müzakirələrdən çıxış edərək digər məsələlərin də irəli aparılması üçün təmaslar davam etdirilir.

## Prezidentin köməkçisi: “Azərbaycanın minatəmizləmə fəaliyyətlərinə beynəlxalq ictimaiyyət tərəfindən dəstəyin artırılmasına ehtiyac var”

Ərazilərimizin kütləvi şəkildə minalanmasında Ermənistanın əsas məqsədi Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında quruculuq və məcburi köçkünlərimizin qayıdışı prosesinə mane olmaq, Azərbaycanın mülki şəxsləri və hərbçiləri arasında maksimum dərəcədə çox xəsarət və ölüm hallarına səbəb olmaq idi. Minanın nə məqsədlə qoyulduğunu hər kəs başa düşür. Yəni, mina nə məqsədlə qoyulmasından asılı olmayaraq, öz qurbanını gözləyir. Təəssüf ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin minalarla kütləvi şəkildə çirkləndirilməsi həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ifadə edib.

Azərbaycanın bu məsələni beynəlxalq ictimaiyyət qarşısında da qaldırdığını vurğulayan Prezidentin köməkçisi bildirib: “Biz beynəlxalq ictimaiyyətə bir daha müraciət etmək istərdik ki, bu məsələdə məlumatlandırma artırılmalıdır. Azərbaycanın minatəmizləmə fəaliyyətlərinə beynəlxalq ictimaiyyət, xüsusilə BMT və onun aidiyyəti strukturları tərəfindən də dəstəyin əsaslı şəkildə artırılmasına ehtiyac var”.

Hikmət Hacıyev deyib ki, mina insanlar arasında hər hansı bir fərq qoymur. Hər bir insan onun potensial qurbanı ola bilər. Ümumiyyətlə, cəmiyyətimizdə mina təhlükəsi ilə bağlı maarifləndirmə işləri aparılır. Bundan sonra da media vasitəsilə, müxtəlif sosial media imkanlarından istifadə edərək mina təhlükəsi barədə maarifləndirmənin artırılmasına ehtiyac var ki, insanlarımız bu dəhşətli bəlanın qurbanı olmasınlar.

## “Təcrübəmiz göstərir ki, məhz sülh olduğu şəraitdə mədəniyyətin inkişafından da danışmaq olar”

Azərbaycan dövlətinin sülhpərvər siyasətinə uyğun olaraq Mədəniyyət Nazirliyi tərəfindən sülh mədəniyyət naminə konsepsiya irəli sürülüb. Vaxtilə UNESCO çərçivəsində və digər təsisatlarda mədəniyyət sülh naminə konsepsiyalar irəli sürülsə də, Azərbaycanın acı təcrübəsi, yəni, işğal və Ermənistanın təcavüzü ilə assosiasiya olunmuş təcrübəmiz göstərir ki, məhz sülh olduğu şəraitdə mədəniyyətin inkişafından da danışmaq olar. Otuzillik işğal dövründə Azərbaycanın mədəniyyət abidələrinin, Qarabağda mədəni izimizin və irsimizin dağıdılması, vəhşicəsinə talan edilməsi bunun bariz nümunəsidir. Ona görə də bu gün regionda sülh təmin olunandan sonra Prezident İlham Əliyevin və Azərbaycan hökumətinin atdığı ilk addımlardan biri Qarabağda mədəniyyətin yenidən çiçəklənməsi, inkişaf üçün yeni şəraitin yaradılmasından ibarət oldu.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

“Bu xüsusda Şuşa şəhərində keçirilmiş “Xarıbülbül” festivalını və digər mədəniyyət tədbirlərini qeyd edə bilərik. Ona görə ədaləti sülh olduğu yerdə mədəniyyətin inkişafı üçün də zəruri şərtlər formalaşmış olur. Hesab edirik ki, bu uğurlu konsepsiya dünya miqyasında sülhün inkişafına böyük töhfə verəcək. Azərbaycanın təşəbbüskarı olduğu “Bakı Prosesi” sivilizasiyalar və mədəniyyətlərarası dialoq konsepsiyalarına uyğun olaraq digər çərçivələrdə də regional və qlobal səviyyədə sülhün, ədalətin möhkəmlənməsinə mühüm töhfələrini verəcək”, - deyə Prezidentin köməkçisi qeyd edib.

# Tərəfdaşlar Forumu plenar iclasla işini davam etdirib

## Növbəti plenar iclas “Sülhsevər cəmiyyətləri və beynəlxalq sülh sistemini dayanıqlı şəkildə necə gücləndirə bilərik?” mövzusuna həsr olunub

“Mədəniyyət naminə sülh” qlobal kampaniyasının Tərəfdaşlar Forumu (“Peace4Culture” Partners Forum) çərçivəsində növbəti plenar iclas “Sülhsevər cəmiyyətləri və beynəlxalq sülh sistemini dayanıqlı şəkildə necə gücləndirə bilərik?” mövzusuna həsr olunub.

AZƏRTAC xəbər verir ki, panel iclası “Sülh əlaqələndiriciləri” təşkilatının təsisçisi və baş icraçı direktoru Jan-Kristof Basın moderatorluğu ilə keçib. J.Bas sülh cəmiyyəti üçün vacib konsepsiyaların bu plenarda müzakirə edildiyinə diqqət çəkərək müzakirələrin yaşadığımız keşməkeşli dünyada vacibliyini vurğulayıb: “Dünyada baş verən qarışıq hadisələr bizi forumda səslənən müzakirələrə yaxından iştiraka sövq edir. Beynəlxalq səviyyədə artıq risklər var. İkiqütblü dünyaya yenidən qərqolma təhlükəsi ilə üz-üzəyik. Tarixdən nəticə çıxarmırıq. Bu problem ona görə bu gün də aktualdır. Bu gün dünya kifayət qədər qütbləşib”.

Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüb. O, xarici işlər naziri Ceyhun Bayramovun adından qonaqları salamlayaraq deyib: “Dayanıqlı sülh necə formalaşır? Əfsuslar olsun ki, Ermənistanla son 30 ildə aparılan danışıqlar özünü doğrultmayıb. Digər tərəflə qarşılıqlı ünsiyyət çox önəmlidir. Ölkəmizdə yüzilliklərdir sülh və əmin-amanlıq şəraitində yaşayan milli azlıqlar var. 2008-ci ildən Prezident İlham Əliyevin təşəbbüsü ilə “Bakı Prosesi”nə başlanılmışdı. İllər boyunca bu əsas platforma kimi müxtəliflik və tolerantlıq, fərqli inanclar təbliğ olunur. 2017-ci ildə BMT-nin baş katibi “Bakı Prosesi”ni dünyada bu məqsədlə yaradılmış əsas platforma kimi dəyərləndirib. Son 13 il ərzində “Bakı Prosesi” çərçivəsində 300-ə yaxın tədbir keçirilib. Bununla bərabər, hər iki ildən bir Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Qlobal Bakı Forumu da təşkil edilir. Bu il ölkəmizdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyi qeyd olunur. Nizaminin əsərlərində sülh və tolerantlıq kimi ideyalar tərənnüm olunur. Budur, bizi həvəsləndirən. Biz burada Azərbaycan olaraq özümüzü güclü, qüdrətli görürük. Bu ideyaları daima səsləndiririk. Sülh özü ilkin şərtdir. Bütün mədəniyyətlərin irəli getməsi üçün əsas şərtdir. Bu, imtiyaz deyil, hüquqdur, haqdır”, - deyə nazir müavini deyib.





Panel iclasında Birləşmiş Ərəb Əmirliklərinin Tolerantlıq Nazirliyinin baş direktoru Elfa Məhəmməd Əl-Sabiri bildirib ki, dinlərarası dialoq bütün dünyada cəmiyyətləri bir araya gətirir: “BƏƏ bütün dinlərə və mədəniyyətlərə qapı açır. Biz mədəni müxtəlifliyə töhfə verən ölkə olaraq bir-birimizin təcrübəsindən yararlanaraq bütün dünyaya öz ideyalarımızı bəyan etməliyik. Mütərəqqi dəyərlər paylaşılmalıdır. Bütün insanlarda xoş gələcəyə inam yaratmalıyıq. Tolerantlığı başqa ölkələrə də təşviq etməliyik. Yekunda qeyd edim ki, tolerantlıq və sülh naminə güclərimizi birləşdirməliyik”.

İstanbul Beynəlxalq Sivilizasiyalar Araşdırmaları Mərkəzinin sədri Bekir Karlığa qeyd edib ki, bu gün dünyamız böyük aşınmalar yaşayır. “Bunun səbəblərini bəziləri siyasət və iqtisadiyyatda arayır. Amma əsas səbəb mədəniyyətdir. Mədəniyyət tamlıqdır. Burada düşüncə, din, sənət, hüquq, ədəbiyyat və dövlət sistemi və birgəyaşayış qaydaları var. Birgəyaşayış mədəniyyətin önəmli sahəsidir. Mədəniyyət sivilizasiyası daha toplumsal bir anlamdır. Sülhün gerçəkləməsi üçün bir barış mədəniyyəti lazımdır. Bunun üçün dini, əxlaqi və insani dəyərlərimiz yetər. Sivilizasiya sözü islamda X əsrdə, Qərbdə isə XVII- XVIII əsrdə işlənilir”, - deyə B.Karlığa söyləyib.

“Təhsil vasitəsilə insanlar üçün yüksək imkanlar” təşkilatının baş icraçı direktoru Xavier Nunez Gonzalez forumu zamanında keçirilən layihə adlandırıb və hədəfə çatacağına əminliyini ifadə edib. Azərbaycan öz tarixi və mədəni irsini qorumaqla BMT xartiyasına əməl edir. İcraçı direktor forumun qarşıya qoyduğu ideyaları dəstəklədiyini bildirib və onun işinə uğurlar arzulayıb.

Ümumdünya Kilsələr Şurasının Beynəlxalq Əlaqələr Komissiyasının direktoru Piter Prov qeyd edib ki, dinlərin rolu bəzən çox mühümdür. Birgəyaşayışda dinlərarası əməkdaşlıq önəmli məsələdir. Azərbaycan bu işdə nümunədir. Ölkələrdə gənclərdə sabaha inamı sülh və təhsil yaradır. Təhsil çox önəmli bir amildir. O, konkret olaraq gələcəyin qarantıdır. Sülhə çağırış, dini mənsubiyyətdən asılı olmayaraq bərabər olmalıdır. Biz insanların səsini beynəlxalq cəmiyyətə çatdırmalıyıq. Mədəni müxtəliflik bizə bəxş edilən qiymətsiz hədiyyədir və biz bunu dəyərləndirib təşəbbüsləri dəstəkləməliyik.

Koventri Universitetinin professoru Mayk Hardi videomüraciətlə forumla bağlı düşüncələrini bölüşərək bildirib ki, biz sülh cəmiyyətinin dayanıqlı olaraq inkişafından danışırıqsa, onu təmin etməyin yollarını, təşəbbüsləri də dəstəkləməliyik.

Məruzələrdən sonra plenar iclasın iştirakçılarının sualları cavablandırılıb.

# Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının Stokholmda baş tutan 28-ci iclası çərçivəsində bir sıra görüşlər keçirib





Dekabrın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının Stokholmda keçirilən 28-ci iclası çərçivəsində ABŞ Dövlət katibi Entoni Blinkenlə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər, ikitərəfli əməkdaşlıq gündəliyi üzrə, o cümlədən iqtisadi, energetika, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın inkişafı məsələlərini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov qarşı tərəfə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra bölgədə mövcud olan vəziyyət, işğaldan azad edilmiş ərazilərdəki dağıntıların miqyası, mina təhlükəsi, sərhəd məntəqəsində gərginliyin səbəbləri, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

Söhbət zamanı Azərbaycanın enerji sahəsində verdiyi töhfə, həm mühüm neft-qaz layihələrinin təşəbbüskarı və icraçısı olduğu, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm amil kimi çıxış etdiyi qeyd olunub.

ABŞ rəsmisi beynəlxalq sülh və təhlükəsizlik məsələlərində Azərbaycan ilə əməkdaşlığı, o cümlədən ölkəmizin Əfqanıstanda fəaliyyətini yüksək dəyərləndirib.

Mütəşəkkil cinayətkarlıq, terrorçuluq, narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması, sülhə və təhlükəsizliyə təhdid və maneə törədən bir sıra hallarla mübarizədə Azərbaycanın rolu vurğulanıb.

Görüşdə tərəflər, habelə qarşılıqlı maraq doğuran regional və qlobal məsələləri müzakirə ediblər.

* * *

Ceyhun Bayramov Finlandiya Respublikasının xarici işlər naziri Pekka Haavisto ilə görüşüb.

Nazirlər iki ölkə arasında ikitərəfli münasibətlər, eləcə də beynəlxalq təşkilatlar, o cümlədən ATƏT çərçivəsində mövcud əməkdaşlıq münasibətlərini müzakirə ediblər.

2025-ci ildə Helsinki Yekun Aktının 50-ci ildönümünün keçiriləcəyi zaman Finlandiyanın ATƏT-ə sədrlik etmək təşəbbüsü məmnunluqla qeyd olunub.

Nazir Ceyhun Bayramov həmkarına regiondakı cari vəziyyət, Azərbaycan-Ermənistan arasında münasibətlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında normallaşması istiqamətində müxtəlif formatlarda görülən işlər, həmçinin üçtərəfli bəyanatların icra olunması istiqamətində atılan addımlar barədə geniş məlumat verib.

Nazirlər həmçinin digər qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Xarici işlər naziri Bolqarıstan Respublikasının xarici işlər naziri Svetlan Stoev ilə görüşüb.

Görüşdə nazirlər Azərbaycan və Bolqarıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyətindən məmnunluqlarını bildirərək bu əməkdaşlığın müxtəlif sahələrdə inkişafında qarşılıqlı marağı ifadə ediblər.

Tərəflər, həmçinin iki ölkə arasında siyasi, enerji, mədəniyyət və digər sahələrdə əməkdaşlığın inkişaf potensialını qeyd edib, növbəti ilin diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsi üzrə fikir mübadiləsi aparıblar. Bu xüsusda, müxtəlif sahələrdə əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Görüş zamanı nazirlər "Cənub qaz dəhlizi"nin Avropa üçün enerji mənbələrinin şaxələndirilməsi və enerji təhlükəsizliyi baxımından əhəmiyyətini qeyd ediblər.

Nazir Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan münaqişəsonrası vəziyyət, işğaldan azad olunan ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri barədə məlumat verib. Azərbaycan və Ermənistan arasında münasibətlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında normallaşdırılması imkanının mövcud olduğu və bu istiqamətdə ölkəmiz tərəfindən atılan addımlar qeyd edilib.

Görüşdə nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 28-ci iclasında iştirak edib



Dekabrın 2-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının Stokholmda keçirilən 28-ci iclasında iştirak edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, iclasda çıxış edən nazir, ötən il 44 gün davam edən müharibədən sonra bölgədə yaranan münaqişə sonrası reallıqlar fonunda mövcud olan vəziyyət və gələcək perspektivlər barəsində danışıb.

Çıxışda aşağıdakı əsas fikirlər səsləndirilib:

ATƏT-in xarici işlər nazirlərinin 28-ci iclası Ermənistanla Azərbaycan arasında davamlı sülhün bərqərar olması üçün razılaşdırılmış parametrləri müəyyən edən üçtərəfli Bəyanatının birinci ildönümünə təsadüf edir. Bu bəyanat regionda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı 11 yanvar 2021-ci il tarixli üçtərəfli Bəyanatla tamamlandı.

30 ilə yaxındır davam edən "Dağlıq Qarabağ münaqişəsi" başa çatıb. Münaqişənin bitməsi ilə Azərbaycan, işğaldan azad edilmiş ərazilərdə fəal şəkildə genişmiqyaslı quruculuq işlərinə başlayıb. İşğalın izləri aradan qaldırılır və normal həyata qayıtmaq istiqamətində addımlar uğurla davam edir.

ATƏT münaqişədən sonrakı reabilitasiya sahəsində öz təcrübəsi və mövcud alətləri ilə bu prosesə töhfə verə bilər.

Münaqişənin sona çatması həm Ermənistan, həm də Azərbaycan üçün bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında irəliləmək üçün unikal imkan yaradıb. Azərbaycan buna hazır olduğunu dəfələrlə vurğulayıb və münaqişə başa çatdıqdan dərhal sonra bu xüsusda bir sıra birtərəfli praktiki addımlar atıb. Ermənistan isə hələ ki buna qarşılıq verməyib.

Ermənistanın üçtərəfli bəyanatlar əsasında üzərinə götürdüyü öhdəlikləri pozmaqda davam etməsi ciddi narahatlıq doğurur. Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı yerinə yetirməli və silahlı qüvvələrini Azərbaycan ərazisindən tamamilə çıxarmalıdır.

Bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasında gecikmələrə son qoyulmalıdır. Bu, bütün maraqlı tərəflərə geniş iqtisadi fayda verməklə yanaşı, etimadın möhkəmləndirilməsi və münaqişədən sonrakı normallaşma tədbiridir. Zəngəzur dəhlizinin tezliklə işə salınması bölgədə sülh və əməkdaşlığa xidmət edəcək və bütün bölgə ölkələri üçün misli görünməmiş yeni imkanlar yaradacaqdır.

Ermənistan hələ də bütün minalanmış ərazilərin tam və dəqiq xəritələrini təqdim etməyib. Bu, işğaldan azad edilmiş ərazilərdə münaqişədən sonrakı reabilitasiya və yenidənqurma prosesini ləngidir, məcburi köçkünlərin təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmasına ciddi maneə yaradır. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından indiyədək minaların partlaması nəticəsində 180 Azərbaycan vətəndaşı, o cümlədən 71 mülki şəxs, onların arasında jurnalistlər və digər media işçiləri həlak olub və ya ağır yaralanıb. Ermənistana, beynəlxalq humanitar hüquq üzrə öhdəliklərinə uyğun olaraq bütün minalanmış ərazilərin dəqiq xəritələrini təqdim etmək üçün əlavə təzyiq göstərilməlidir.

Ermənistan həmçinin 1990-cı illərin əvvəllərində baş vermiş silahlı hərbi əməliyyatlar zamanı itkin düşən 4000-ə yaxın azərbaycanlının yerinin müəyyən edilməsi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri hələ də yerinə yetirməyib. Bu, keçmiş münaqişənin yaralarını sağaltmaq üçün vacibdir.

Azərbaycan ərazilərini işğaldan azad edərək, Ermənistanın beynəlxalq hüquq normalarını pozaraq güc yolu ilə yaratdığı qondarma "reallığı" əvəz edən ədalət və asayişi bərpa edir. Bunun nəticəsidir ki, Ermənistan və Azərbaycan arasında təxminən otuz ildən sonra ilk dəfə sülh əldə edilə bilər.

Bu baxımdan Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabrın 26-da Soçidə keçirilən görüşü irəliyə doğru mühüm addımdır. Üç lider əvvəllər razılaşdırılmış parametrlərin həyata keçirilməsi ilə bağlı ətraflı və əsaslı müzakirələr aparıb, həmçinin münaqişədən sonrakı normallaşma ilə bağlı gələcək addımları müəyyən edib. Bu ilin sonunadək sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Rusiya Federasiyasının məşvərətçi rolu ilə ikitərəfli Ermənistan-Azərbaycan komissiyasının yaradılması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan gözləyir ki, bu sazişlər təxirə salınmadan reallaşacaq və Cənubi Qafqazı daha sabit məkana çevirmək məqsədimizə töhfə verəcək.

Hazırkı çox mühüm bir məqamda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə kömək etmək üçün bütün beynəlxalq ictimaiyyətin birgə səylərinə ehtiyac var. Beynəlxalq ictimaiyyət yalan gözləntilərin yaranmasına yol verməməli və bütün səylərini üçtərəfli bəyanatların tam şəkildə həyata keçirilməsinə və regionda etimadın və sabitliyin yaradılması üçün Ermənistan və Azərbaycanla praktiki əlaqələrə töhfə verməlidir.

Dəyişən reallıqları nəzərə alaraq Azərbaycan tərəfdaş ölkələri regionda inkişaf və əməkdaşlıq üçün yeni perspektivli imkanları dəyərləndirməyə və onlardan istifadə etməyə çağırır.

# ATƏT PA-nın Stokholmda keçirilən büro iclasında Azərbaycandan Türkiyəyə dəstək

ATƏT Parlament Assambleyasının Stokholmda keçirilən büro iclasında Azərbaycan Respublikası Milli Məclisinin deputatı və ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev Türkiyə əleyhinə səsləndirilən çağırışlara qarşı çıxış edib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dekabrın 1-də İsveçin paytaxtı Stokholm şəhərində ATƏT PA-nın büro iclasında Kiprdən olan vitse-prezident İrene Çaralambides çıxışında Avropada cərəyan edən miqrant probleminə toxunub. Kiprin nümayəndəsi ölkəsinin və Yunanıstanın miqrant böhranının birbaşa təsiri altında olduğunu və problemin həlli üçün böyük vəsaitlərin sərf edildiyini bildirib. Çıxışının davamında o, miqrant probleminin daha səmərəli həlli üçün Türkiyəyə verilən milyardlarla avro maddi yardımın əvəzinə bu vəsaitin digər ölkələrə verilməsinə çağırış edib.

Buna cavab olaraq ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev söz alıb, Kipr nümayəndəsinin qaldırdığı məsələyə etirazını bildirib. A.Quliyev deyib ki, ölkələr arasında belə bir ayrı-seçkilik yolverilməzdir, Türkiyəyə qarşı bu cür seleketiv və ikili yanaşma tamamilə əsassızdır. Azay Quliyev diqqətə çatdırıb ki, 4,5 milyon qaçqının sığındığı Türkiyəyə qarşı ədalətsiz yanaşmaya yol verilməməlidir. Türkiyə son 10 ildə qaçqınların problemlərinin həlli üçün 40 milyard dollardan çox vəsait xərcləyib və bunu gözardı etmək olmaz.

Azay Quliyev sonda ATƏT və Aİ ölkələrini bu əhəmiyyətli məsələdə Türkiyəni maddi baxımdan dəstəkləməyə və Türkiyənin üzərində olan bu ağır yükü bölüşməyə çağırıb.

# *UNEC İqtisadi Forumunun ikinci günü:* "Postpandemiya dövründə elm və təhsil" və "İqtisadiyyatın rəqəmsal transformasiyası"







Təhsil və İqtisadiyyat nazirliklərinin dəstəyi, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşkilatçılığı ilə dövlət müstəqilliyinin bərpasının 30 illiyinə həsr olunan UNEC İqtisadi Forumu-2021 davam edir.

AZƏRTAC xəbər verir ki, dekabrın 2-də forum çərçivəsində "Postpandemiya dövründə elm və təhsil" mövzusunda panel iclas keçirilib.

Forumda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, dövlət qurumlarının rəhbərləri, Milli Məclisin deputatları, elm və təhsil üzrə xarici və yerli ekspertlər iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

UNEC-in rektoru professor Ədalət Muradov mövzunun aktuallığını vurğulayıb. Pandemiyanın elm və təhsilə baxışları dəyişdirdiyini və gələcəklə bağlı cavabı gözləyən çoxsaylı sualları ortaya qoyduğunu diqqətə çatdıran rektor böhranın ilk dövründə distant təhsilə keçidin yaranan problemləri aradan qaldıracağı düşüncəsini formalaşdırdığını bildirib: "Bütövlükdə təhsil sistemində atılan addım onu deməyə əsas verir ki, məsafədən təhsil həll yolu kimi qəbul edilmir. Məsafədən təhsilin davamlılığı təmin edilsə də, elmdə fərdiçiliyə sanki "yaşıl işıq" yandırıldı. Elmin gələcəyi ilə bağlı yeni elmi kommunikasiyalar və onların formaları ilə bağlı ciddi suallar var". Rektor panellərdə bu sualların həlli istiqamətində müzakirələr aparılacağını, forumun ölkəmizin gələcək inkişafı ilə bağlı əhəmiyyət kəsb edən sualların cavablandırılması üçün platforma rolunu oynayacağını deyib.

Sonra Nobel mükafatı laureatı, professor Əziz Səncər pandemiya dövrünün elm adamları üçün yaratdığı problemlərdən söz açıb. Həmin dövrdə tədqiqat qruplarının daim elmi axtarışlarda olduğunu deyən alim, işçilərin qapalı şəraitdə çalışdığını, psixoloji durumlarında ciddi problemlər yaşandığını deyib.

Tədbirdə çıxış edən təhsil naziri Emin Əmrullayev forumun dövlət müstəqilliyinin bərpasına və böyük Zəfərə həsr olunmasının özünəməxsus əhəmiyyəti olduğunu xüsusi vurğulayıb. Nazir ölkənin bundan sonrakı elm və təhsil sahəsində fəaliyyətinin məhz müstəqillik və zəfərlə bağlı olduğunu deyib. Postpandemiya dövründə təhsil sahəsində yaranan problemlərdən və onların



həlli yollarından söz açan nazir elm və təhsil sahəsində dövlətin qərarvermə modeli üzərindən məsələyə yanaşıb. O, pandemiya dövründə verilən emosional və rasional qərarlar arasındakı fərqi təhlil edərək rasional qərarların daha ciddi dəlillərə əsaslandığını diqqətə çatdırıb. Nazir təhsil və elm siyasətinin qarşısında duran əsas məqsədin bu sahədə əlçatanlığın və keyfiyyətinin artırılması, müxtəlif sosial qruplardan olan insanlara bərabər imkanların yaradılması olduğunu bildirib. Təhsilin keyfiyyətinə yeni baxışın formalaşmasının vacibliyini diqqətə çatdıran E.Əmrullayev aidiyyəti dövlət və digər müstəqil qurumların keyfiyyətə nəzarət mexanizmlərinin olmasının labüdlüyünü bildirib. Nazir ali təhsilin keyfiyyətinin ölçülməsi meyarlarını da açıqlayıb: "Hazırda bir çox problemlərin həlli elmi tərəqqi və tədqiqatlardan asılıdır. Başa düşməliyik ki, resurslar məhduddur. Bu məhdudiyyətlə hansı sahələri necə inkişaf etdirməyi düşünməliyik. Prosesə bu gün başlamalıyıq ki, nəticəni 20-30 ildən sonra görə bilək. Bilik və bacarıq kafi şərtlərdir, əsas motivasiyadır. Pandemiya göstərdi ki, dünyada dəyər zəncirləri necə kövrəkdir".

Nazir pandemiya dövrünün önəmli məsələlərindən birinin də ayrı-ayrı sosial iqtisadi qrupların öyrənmə prosesinin monitorinq məsələsi olduğunu bildirib.

Türkiyənin Ali Təhsil Şurasının (YÖK) rəhbəri Erol Özvar pandemiyanın ali təhsil sahəsində yaratdığı təsirlərindən danışıb. Bu böhranın bütün sahələrdə olduğu kimi, təhsil sahəsində yeni vərdişlər yaratdığını, ali təhsil paradiqmasının dəyişməsinin qaçılmaz olduğunu deyib. Distant təhsilin alternativinin olmadığına və bir sıra çağırışlarla xarakterizə edildiyinə diqqət çəkən YÖK rəhbəri ali təhsildə insan amilinin dəyişməli olduğunu bildirib.

E.Özvar rəqəmsal informasiya cəmiyyəti və rəqəmsal iqtisadiyyatın tələblərindən də söz açıb: "Rəqəmsal transformasiya nəticəsində insan resurslarına tələblər dəyişib. Rəqəmsallaşma məşğulluq sahəsində də ciddi dəyişikliklər yaradıb. Ali təhsil müəssisələri əmək bazarının tələblərinə uyğun olaraq, rəqəmsal bacarıqların artırılmasına yönəldilən tədris proqramlarına daha çox üstünlük verməlidirlər".

Almaniyanın Münhen Tədqiqat Universitetinin Təhsil İnstitutunun professoru Məsud Əfəndiyev ölkələrin inkişafında elm və təhsilin rolundan söz açıb. O, bəşəriyyətin gələcəyi üçün təhsilin, elmin və mədəniyyətin rolunun əvəzedilməz olduğunu, təhsil sistemində və tədris mühitində ən vacib faktorun tələbə olduğunu deyib: "Belə bir ana deyimi var ki, "Mən öyrəndiklərimin bir çox hissəsini müəllimlərdən, daha çoxunu həmkarlardan, ən çoxunu isə tələbələrdən öyrənmişəm". Alim pandemiyanın yaratdığı yeni vərdişlərdən, süni intellekt və V Sənaye İnqilabının tələblərindən də danışıb.

Çıxışlardan sonra panel məruzəçiləri iştirakçıların suallarını cavablandırıblar.

Forum çərçivəsində UNEC alimlərinin müəllifi olduqları "Elektron ticarət və elektron ixracat", "Sosial elmlərdə tədqiqat metodları", "Rəqəmsal marketinq və sosial media" kitablarının təqdimatı olub. Bildirilib ki, "SABAH Magistratura" layihəsi çərçivəsində yazılan və tədris prosesində istifadə olunacaq "Rəqəmsal marketinq və sosial media" və "Elektron ticarət və elektron ixracat" dərslikləri Azərbaycan dilində hazırlanmış ilk ədəbiyyatdır. Kitabın əsas özəllikləri onların yerli, beynəlxalq özəl sektor və akademik bazaya aid bir çox xüsusiyyəti özündə əks etdirməsidir.

Forumda UNEC ilə Ukraynanın Taras Şevçenko adına Kiyev Milli Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

UNEC-in rektoru professor Ədalət Muradov ilə T.Şevçenko adına Kiyev Milli Universitetinin rektoru professor Vladimir Buqrov arasında imzalanan müqavilədə birgə elmi-tədqiqat təcrübəsi və araşdırmaların aparılması, bakalavr, magistratura və doktorantura proqramlarının hazırlanması, tələbə və akademik heyət mübadiləsinin genişləndirilməsi və inkişaf etdirilməsi, birgə elmi nəşrlər hazırlanması və mübadiləsi nəzərdə tutulub.

Sonra "SPRİNGER" nəşriyyat şirkətinin iqtisadiyyat üzrə redaktə məsələləri direktoru Kristian Rausçerin tədqiqatçılarla görüşü keçirilib.

Forum Holon Texnologiya İnstitutunun (H.I.T) Kiber şöbəsinin rəhbəri Harel Menaşrinin moderatorluğu ilə keçirilən "İqtisadiyyatın rəqəmsal transformasiyası: Yeni çağırışlar, yeni imkanlar" mövzusunda panel iclasla davam edib.

Paneldə çıxış edən Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev forumda müzakirə olunan mövzuların Prezident İlham Əliyevin ölkəmizin 2030-cu ilədək inkişaf istiqamətləri ilə bağlı müəyyən etdiyi Milli Prioritetlərdən irəli gələn məsələlərin effektiv icrası üçün mühüm platforma olduğunu deyib. Nazir Azərbaycanda rəqəmsal transformasiyanın səmərəliliyinin təmin olunmasından və rəqəmsallaşmanın iqtisadi inkişafa verəcəyi töhfələrdən söz açıb: "Cəmiyyətin inkişafını təmin edən yeganə vasitə innovasiya və texnologiyaların inkişafıdır. Azərbaycanda belə bir cəmiyyətin qurulması əsas hədəflərdəndir və bu istiqamətdə məqsədyönlü addımlar atılır. Reallıq odur ki, bu gün Azərbaycan iqtisadiyyatı təbii resurslardan hələ də asılıdır. Qarşımızda duran əsas məsələ rəqəmsal transformasiyadan maksimum istifadə edərək zaman kəsiyini qısaltmaqdan ibarətdir. Bu vizyonu həyata keçirmək üçün həmin ekosistem yaradılmalıdır. Bu yol isə yalnız qanunun aliliyindən, sağlam fəaliyyət göstərən hökumətin mövcudluğundan, sabit infrastrukturun yaradılmasından keçir. Bunlar təmin edildikdən sonra ölkədə birmənalı şəkildə elmin və təhsilin inkişafına daha çox diqqət ayıra bilərik".

Sonra Türkiyənin əmək və sosial təminat nazirinin müavini Lütfi Alpkan rəqəmsal transformasiyanın iş dünyasında tətbiqindən danışıb. Süni intellektin, rəqəmsal transformasiyanın üstünlüklərinə, eləcə də yaratdığı problemlərə toxunan nazir müavini trendləri də açıqlayıb. O, dünyanın böyük dövlətlərinin bu istiqamətdə təcrübəsini paylaşaraq müqayisəli təhlillər aparıb.

Kanadanın Engeland İnstitutunun həmtəsisçisi, baş əməliyyat direktoru Danel Kerimi texnologiyalardakı çatışmazlıqlar, eləcə də texnoloji tullantıların səmərəli istehsalı barədə ətraflı məlumat verib.

BP-nin Sistem arxitekturası üzrə rəhbəri Qaret Key isə smart texnologiyalar və onların neft və qaz sənayesindəki tətbiqindən danışıb.

UNEC İqtisadi Forumu dekabrın 3-də öz işini davam etdirəcək.

# Azərbaycan dünyada mədəniyyətin inkişafına böyük töhfələr verir

Ötən il Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğalçı Ermənistan üzərində böyük Qələbə qazandı və torpaqlarımızı işğaldan azad etdi. Bu, İslam dünyasında son dövrlərdə əldə edilmiş ən mühüm nailiyyətlərdən biridir. Təbii ki, bu Qələbə bizə asan başa gəlmədi. Neçə-neçə igid övladlarımızı şəhid verdik. Vətən müharibəsi şəhidlərinə və noyabrın 30-da helikopter qəzasında şəhid olan hərbçilərimizə Uca Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm.

AZƏRTAC xəbər verir ki, bu sözləri Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə dekabrın 2-də Bakıda keçirilən "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumunun ("Peace4Culture" Partners Forum) iştirakçıları ilə görüşündə deyib.

Forumun böyük əhəmiyyət daşıdığını deyən QMİ sədri qeyd edib ki, sülh və mədəniyyət bir-birindən çox asılıdır. Sülh olan yerdə mədəniyyət də olur.

"Bu gün Azərbaycan dünyada sülh, sabitlik məkanı kimi tanınır. Azərbaycan dövləti dünyada mədəniyyətin inkişafına böyük töhfələr verir. Buraya tarixi, mədəni abidələrin bərpası, mədəniyyətin inkişafı kimi məsələlər də daxildir", - deyə Şeyxülislam Allahşükür Paşazadə əlavə edib.

ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Ravvin Mark Şnayer dünyada böyük dini lider kimi tanınan Şeyxülislam Allahşükür Paşazadənin sülhün təmin edilməsində rolunun böyük olduğunu vurğulayıb.

Mədəniyyətlər İttifaqının başqanı Bekir Karlığa bu gün dünyada mədəniyyətlərarası savaşın müşahidə olunduğunu deyib. Qeyd edib ki, Şeyxülislam Allahşükür Paşazadə bütün dünyada sülhün carçısı kimi tanınır.

Görüşdə həmçinin Milli Məclisin deputatları iştirak ediblər.

# Nazirlər Konfransında ölkəmizdə sabit demoqrafik inkişaf və sosial müdafiə tədbirləri barədə məlumat verilib

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və nazirliyin nümayəndələri Bolqarıstan Hökuməti və BMT-nin Əhali Fondunun təşkilatçılığı ilə "Demoqrafik dözümlülük: Sürətli demoqrafik dəyişikliyin baş verdiyi dünyada cəmiyyətlər üçün inkişaf yolları" mövzusunda keçirilən Nazirlər Konfransında iştirak edib.




Tədbirdə müxtəlif ölkələrin hökumət qurumlarının rəhbər şəxsləri, beynəlxalq təşkilatların nümayəndələri, ekspertlər iştirak edib.

Konfransın 6-cı Nazirlər Dialoqu panelində sualları cavablandıran S.Babayev Azərbaycanın sabit demoqrafik inkişaf tempinə malik ölkə olduğunu, dövlətimizin siyasətinin bu tempin qorunub saxlanılmasına yönəldiyini vurğulayıb. O, ölkəmizin dayanıqlı demoqrafik inkişafını təmin edən strategiyanın tərkib hissəsi kimi, səmərəli sosial müdafiə və sosial təminat sisteminin mövcud olduğunu deyib. Aktiv məşğulluq proqramlarını, əmək bazarının tənzimlənməsi və digər sosial rifaha xidmət edən tədbirləri diqqətə çatdırıb. Gənclər, yaşlılar, qadınlar, əlilliyi olan şəxslər və sosial cəhətdən digər həssas qrupların layiqli məşğulluğunun təmin edilməsi üçün aparılan işləri, ölkəmizdə icra olunan fəal yaşlanma siyasətini qeyd edib.

Nazir Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il Vətən müharibəsində əldə etdiyi tarixi Zəfəri, Azərbaycanın öz ərazi bütövlüyünü təmin etdiyini diqqətə çatdırıb. O, işğaldan azad olunmuş ərazilərin "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyası əsasında bərpası işlərindən bəhs edib. Əhalinin həmin ərazilərə böyük qayıdışının səmərəli təşkilinin qarşıda duran əsas hədəflərdən biri olduğunu qeyd edib.

S.Babayev Azərbaycanda əmək, məşğulluq və sosial müdafiə sistemindəki islahatlar, aktiv məşğulluq tədbirlərinin, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi işləri barədə məlumat verib. Qeyri-formal məşğulluğun leqalllaşdırılması, sosial infrastrukturun genişləndirilməsi, hər bir vətəndaşın, xüsusilə yaşlıların sosial xidmətlərə əlçatanlığının təmin edilməsi istiqamətində tədbirləri diqqətə çatdırıb. O, Azərbaycanda sosial müdafiə və təminat ödənişlərin maliyyələşdirilməsi xərclərinin son 3 ildə 60% artırıldığını vurğulayıb. Bildirib ki, aparılan siyasət vətəndaş rifahının təminatına, sosial müdafiə sisteminin əhatəliliyi və ünvanlılığının təmin edilməsinə, sosial sahədə sürətli, rahat və şəffaf xidmətlərə çıxış imkanlarının yaradılmasına yönəlib.

Nazir əhalinin demoqrafik strukturunda baş verən dəyişikliklər, yeni texnologiyaların sürətli inkişafı, pandemiya, qlobal istiləşmə və digər amillərin təsirini minimallaşdırmaq baxımından sosial siyasətlərin etibarlı maliyyələşdirilməsi üçün birgə səylərin davam etdirilməsində bu kimi dialoqların önəmini diqqətə çatdırıb

***"Azərbaycan"***

# "Növbəti stansiya Şuşa şəhəridir"




Azərbaycan öz coğrafi mövqeyinə görə də dünyada əhəmiyyətli yer tutur. Ölkəmiz Şərqlə Qərbi birləşdirən ən qısa tranzit yolu üzərində yerləşir və qədim İpək yolunun Azərbaycandan keçməsi bununla bağlıdır.

Çar Rusiyası tərəfindən Cənubi Qafqazda ilk dəmir yolunun Azərbaycanda tikilməsi barədə qərarın qəbul edilməsi də təsadüfi deyildi.

Bolşeviklər ölkəmizi işğal etdikdən sonra 70 il biz tranzit ərazi kimi hüququmuzu itirmişdik. Daha doğrusu, belə bir imkan əlimizdən alınmışdı. Məhz buna görə də müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycanın ilk qəbul etdiyi qərarlardan biri dünya üçün əhəmiyyətli tranzit ölkəyə çevrilməsi barədə oldu. İndi tarixi İpək yolunun bərpasına ilk təşəbbüs göstərən də, ən çox sərmayə yatıran ölkə də Azərbaycandır.

Şübhəsiz ki, həmişə dünya üçün əhəmiyyətli layihələrin rəqibləri olur. Bu rəqabətin bəzən təxribata çevrilməsi və siyasi şantaja məruz qalması da təbii haldır. Tarixi İpək yolunun bərpasının ilk mərhələsində biz məhz bu hallarla rastlaşdıq. Lakin Prezident İlham Əliyev bütün bunlara sinə gərərək öz istədiyinə nail oldu. Hətta Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsinin maliyyələşdirilməsini dövlətimiz öz üzərinə götürdü. Bununla tarixi İpək yolunun çəkilməsində müşkülə çevrilmiş maliyyə məsələsi də həll olundu.

Hazırda Çinlə Avropa ölkələri arasındakı qarşılıqlı ticarətin dəyəri 1 trilyon dollardır. Bu ticarətin böyük hissəsi dəniz yolu vasitəsilə həyata keçirilir. Bu marşrutun maya dəyəri baha, daşınma müddəti uzundur. Amma alternativ marşrut var. Həmin yükləri Azərbaycan üzərindən keçirməklə 12 gün daha tez çatdırmaq mümkündür.

Ümumiyyətlə, bu gün dünya ticarətinin 80 faizi dəniz yolu ilə reallaşdırılır. Həmin yolların nəzarəti isə Amerika Birləşmiş Ştatlarının əlindədir. Buna görə də hazırda Çinlə ABŞ arasında iqtisadi, siyasi və hərbi gərginlik yaşanmaqdadır. Bu üzdən Çin ticarətini dəmir yolu ilə aparmağa xüsusi diqqət yetirir. Üstəlik, Azərbaycan 44 günlük Vətən müharibəsində yeni reallıqlar yaratmışdır. Belə ki, Zəngəzur dəhlizi ilə daha çox yük göndərmək mümkün olacaq. Bu dəhliz vasitəsilə Azərbaycandan Türkiyəyə keçirməklə yükləri tez bir zamanda Avropa və Yaxın Şərq ölkələrinə çatdırmaq imkanı yaranacaq. Bir sözlə, Zəngəzur dəhlizi Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcək.

Ermənistanın hər bir vəchlə buna müqavimət göstərməsi isə faydasızdır. Azərbaycan bu məsələni regionda söz sahibi olan ölkələrlə çoxdan həll edib. Bu il oktyabrın 26-da Azərbaycan və Rusiya prezidentləri ilə Ermənistanın baş naziri arasında Soçidə keçirilən görüşün nəticəsi də bunu aydın göstərir.

İşğaldan azad edilən ərazilərdə dəmir yolu infrastrukturunun yenidən qurulmasına və təzə xətlərin çəkilməsinə artıq start verilib. Hazırda Bərdə-Ağdam, Horadiz-Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması və Füzuli-Şuşa təzə dəmir yolu xəttinin inşası istiqamətində işlər davam edir.

Bu il fevralın 14-də Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş Horadiz-Ağbənd dəmir yolu xəttinin uzunluğu 110,4 kilometrdir. Qeyd edək ki, bu xətlərin çəkilməsi Zəngəzur dəhlizinin fəaliyyətə başlaması üçün ilkin şərtdir. Bu səbəbdən də Horadiz-Ağbənd dəmir yolunda işlərin sürətlə həyata keçirilməsinə xüsusi önəm verilir. Birxətli dəmir yolu üzərində 8 stansiya tikiləcək. Bununla bərabər, layihə çərçivəsində ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılıb. Hazırda minalardan təmizlənmiş 39 kilometrlik hissədə torpaq yatağının hazırlanması, həmçinin süni qurğuların tikintisi işləri həyata keçirilir.

Düşmənin bir hissəsini dağıtdığı Bərdə-Ağdam dəmir yolunun bərpası istiqamətində də iş aparılır. Əvvəlcə yolun fəaliyyət göstərən Bərdə və Köçərli stansiyaları təmir ediləcək, Təzəkənd və Ağdam stansiyaları isə yenidən tikiləcək. Bərdə-Köçərli-Təzəkənd istiqaməti üzrə layihələndirmə və üst quruluşunun söküntüsü işləri tamamlanıb. Torpaq yatağının üst quruluşu elementlərinin, süni qurğuların tikintisi və Təzəkənd-Ağdam istiqaməti üzrə layihələndirmə işləri isə davam edir. Qeyd edək ki, Qarabağın və Şərqi Zəngəzurun coğrafi şəraiti, ərazidə dağlıq yerlərin çox olması dəmir yollarının çəkilişi üçün çətinlik yaradır. Üstəlik, bu yerlər düşmən tərəfindən minalanıb.

Bütün bunlara baxmayaraq, qatarlar Qarabağın zirvəsinə qalxacaq. İlk dəfə Füzulidən Şuşaya 83,4 kilometr uzunluğunda dəmir yolu çəkiləcək və bölgənin inkişafına öz töhfəsini verəcək. Çünki qış aylarında qarın çox yağdığı və yolların buz bağladığı dövrlərdə avtomobil yolu ilə hərəkəti dayandırmaq məcburiyyəti yaranır. Dəmir yolu isə müstəsna hallarda işləməyə bilər.

Hazırda görülən işlərə paralel olaraq, Qarabağın yüksəklikdə yerləşən Kəlbəcər bölgəsinə dəmir yolu xətlərinin çəkilməsi araşdırılır. Dəliməmmədli-Kəlbəcər dəmir yolu layihəsinin ilkin konseptual variantı hazırlanıb.

Şuşa və Kəlbəcərə dəmir yolu xəttinin çəkilməsi Qarabağ və Şərqi Zəngəzur bölgələrinin inkişafında müstəsna rol oynayacaq. Bu yolun hərbi-strateji əhəmiyyəti də böyükdür.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Rumıniyanın Azərbaycandakı səfirinə ölkəmizdə aparılan sosial islahatlar barədə məlumat verilib

Əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycan və Rumıniya hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayev Rumıniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vasile Soare ilə görüşüb.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir V.Soareni yeni vəzifəyə təyinatı münasibətilə təbrik edib, ona ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişafı məqsədilə görəcəyi işlərdə uğurlar arzulayıb. O, həmçinin Rumıniyanın milli bayramı - Birlik Günü münasibətilə təbriklərini ifadə edib.

S.Babayev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il Vətən müharibəsində əldə etdiyi tarixi Zəfəri, beynəlxalq səviyyədə tanınmış ərazilərimizin Ermənistanın işğalından azad edildiyini vurğulayıb. Həmin ərazilərdə böyük quruculuq işlərinin aparıldığını qeyd edib.

Nazir Azərbaycan və Rumıniya dövlət başçılarının qarşılıqlı səfərlərinin, imzaladıqları əməkdaşlıq sənədlərinin iki ölkə arasında əlaqələrin inkişafına şərait yaratdığını vurğulayıb. Ötən dövrdə Azərbaycanla Rumıniya arasında 60-dan çox əməkdaşlıq sənədinin imzalandığını deyən S.Babayev iki ölkə arasında strateji tərəfdaşlıq əsasında əlaqələrin ildən-ilə genişləndiyini bildirib.

O, 2021-ci ilin yanvar-oktyabr aylarında da ötən ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycanla Rumıniya arasında ticarət dövriyyəsinin 52,21 faiz artdığını qeyd edib.

Ölkəmizdə Rumıniya şirkətlərinin uğurlu fəaliyyəti diqqətə çatdırılıb. Azərbaycan və Rumıniya hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın fəaliyyətindən bəhs olunub. Səfirə ölkəmizdə aparılan sosial islahatlar barədə də məlumat verilib.

V.Soare ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsində maraqlı olduğunu, iki ölkənin əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsində olmasının məmnunluq doğurduğunu deyib. Diplomatik fəaliyyəti dövründə ikitərəfli əməkdaşlığın inkişafı üçün səylər göstərəcəyini vurğulayıb.

Görüşdə Azərbaycan və Rumıniya əlaqələrinin mövcud vəziyyəti və gələcək inkişafına, Müştərək Komissiyanın fəaliyyətinə dair fikir mübadiləsi aparılıb.

# Qiymətlər bahalaşır, gəlirlər azalır, ölkə boşalır

## Ermənistanda miqrasiyanın mənfi saldosu 33 faiz artıb

***Əvvəli 1-ci səh.***

Artıq İrəvanda büdcənin, ölkədəki sosial durumun Qarabağ müharibəsinə görə ikiqat zərbə alması aşkar şəkildə etiraf edilir. Erməni iqtisadçı Larin Minosyan Ermənistanda qiymətlərin yenə də yüksək olmasını və hələ artımın davam etdiyini vurğulayır: "Yeni tarif ili yaxınlaşdıqca, kommunal xidmətlərin tariflərinə yenidən baxılması prosesi gözlənilir. Bu istiqamətdə bəzi şirkətlər satış qiymətinin dəqiqləşdirilməsi və növbəti il üçün qiymətlərin müəyyənləşdirilməsi məqsədi ilə tarif şurasına müraciət edib. Bağlanılan müqaviləyə əsasən şirkətlər hər il belə bir təşəbbüslə çıxış etmək hüququna malikdir və bundan yararlanırlar".

Bütün bunların fonunda Ermənistan üçün ən ciddi problemlərdən biri demoqrafiya sahəsində yaranan böhrandır. Xatırladaq ki, Ermənistanın əhalisi 1990-cı ildən başlayaraq davamlı surətdə azalmağa doğru gedir. Rəsmi məlumatlara əsasən, ölkənin əhalisi 2.9 milyon nəfər, doğum səviyyəsi isə 1.6 milyon nəfər təşkil edir ki, bu da özünübərpa səviyyəsindən çox aşağıdır.

Ekspertlər bildirirlər ki, Ermənistan artıq demoqrafik böhran həddinə çatıb və tədricən depopulyasiyaya, yəni ölüm nisbətinin doğum səviyyəsini ötdüyü mərhələyə yaxınlaşır. Çünki bütün ölkə üzrə ölüm nisbəti doğum səviyyəsini aşıb.

Ermənistan Statistika Komitəsinin son məlumatları da vəziyyətin acınacaqlı olduğunu təsdiq edir. Qurumun bildirdiyinə görə, bu ölkənin ali məktəblərində 15 min tələbə yeri boş qalıb. Qeyd olunur ki, bu, ölkənin gələcəyi üçün əsl fəlakətdir. Çünki proses getdikcə dərinləşir və bu rəqəm hər il artmaqda davam edir. Ölkə əhalisinin sayının azalması artıq gənc nəslin sayında özünü büruzə verməyə başlayıb. Məlumata görə, əvvəllər ölkəni əsasən iş qabiliyyətli əhalinin yaşı 30-dan yuxarı hissəsi tərk edirdisə, indi erməni ailələri uşaqları ilə birlikdə gedirlər.

Ölkəni tərk edən ailələrin uşaqlarını özləri ilə aparması halları keçən ilin payızında baş verən 44 günlük İkinci Qarabağ müharibəsindən sonra daha da sürətlənib. İctimai fəalların dediyinə görə, erməni ailələr uşaqlarının gələcəkdə baş verəcək növbəti müharibələrə qurban getməməsi üçün onları başda Rusiya olmaqla digər xarici ölkələrə aparır, oradakı məktəblərə qoyur və qeydiyyata salırlar.

Qeyd olunur ki, 2021-ci ilin 8 ayı ərzində Ermənistanı hava yolu ilə tərk edən ölkə vətəndaşlarının sayı gələnlərdən 64 min 78 nəfər çoxdur. Bildirilir ki, 9 ayda hava yolu ilə gedən vətəndaşların sayı gələnlərdən 74 min 506 nəfər, 10 ayda isə 84 min 934 nəfər çoxdur. Məlum olub ki, Ermənistanda miqrasiyanın mənfi saldosu 3 ayda təxminən 21 min nəfər (33 faiz) artıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

◆ **İlə yekun vurulur**

Neft-qaz diyarı kimi son dövrlər şöhrəti daha da artan ölkəmiz üçün 2021-ci il də uğurlu olub. Dənizdəki və qurudakı karbohidrogen yataqlarından hasilat ahəngdar davam edib. İxrac marşrutları fasiləsiz və təhlükəsiz işləyib. Yeni layihələrə start verilib. Bunları bir neçə layihə çərçivəsində həyata keçirilən işlərin timsalında da aydın görmək olar.



# Azərbaycan neft-qaz sahəsində cari ili də uğurlarla yola salır

## Ölkəmizin yaratdığı beynəlxalq tərəfdaşlıq platforması daha da möhkəmlənib

2020-ci ilin son günündə istifadəyə verilən Trans-Adriatik Qaz Boru Kəməri (TAP) üçün 2021-ci il, əslində, birinci fəaliyyət ili olub. "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan, ölkəmizdən Avropa bazarlarına ildə 10 milyard kubmetr qaz tədarükünü həyata keçirəcəyi nəzərdə tutulan bu kəmər il-boyu ilk, həm də böyük uğurlara imza atıb. Hətta Dubayda keçirilən "Gas tech Awards-2021" mərasimində "İlin təbii qaz, LNG və ya hidrogen layihəsi" kateqoriyasında qalib elan olunub. Qeyd edək ki, hər il keçirilən qlobal "Gastech" konfransı ərəfəsində təşkil olunan "Gastech Awards" mükafatları şirkətlərin və təşkilatların təbii qaz sektorundakı üstün nailiyyətlərinə görə verilir.

TAP sistemi keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir. Potensialı onun ötürücülük gücünü iki dəfə artıraraq ildə 20 milyard kubmetrə çatdırmağa imkan verir.

Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi" layihəsinin ayrılmaz hissəsi olan TAP Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı TANAP-dan (Trans-Anadolu Qaz Boru Kəməri) qəbul edir. Bu, uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

Xatırladaq ki, TAP xətti İtaliyada bitməsinə baxmayaraq, gələcəkdə Azərbaycan qazının Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün də böyük imkanlar yaradır. Prezident İlham Əliyev "Cənub qaz dəhlizi"nin, o cümlədən TAP-ın perspektivlərinə toxunaraq demişdir: "Azərbaycan qazı artıq Avropa bazarındadır. Əlbəttə ki, bizim böyük layihə olan "Cənub qaz dəhlizi"nin tamamlanması ilə bağlı planlarımız bununla məhdudlaşmır. Biz görürük ki, Avropa İttifaqının bir çox başqa üzvlərinin də təchizatçısı ola bilərik. Biz təchizatımızın coğrafiyasını genişləndirmək üçün Avropa İttifaqı ilə birgə işləməyi planlaşdırırıq - xüsusilə indi, qışda hər kəs görəndə ki, alternativ marşrut baxımından alternativ mənbə məhz enerji təhlükəsizliyidir."

Sentyabr ayında "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku özünün 27-ci ildönümünü 4 milyardıncı barel neft hasilatı ilə qeyd etdi. Bu əlamətdar hadisə həm də AÇG-nin dünya səviyyəli yataq olduğunu bir daha təsdiqlədi. Xatırladaq ki, AÇG layihəsi çərçivəsində hasilata 1997-ci il noyabr ayında "Çıraq" platformasından başlanıb. İndi - 24 il sonra da yüksək texnologiyalı 7 müasir platforma ilə birlikdə "Çıraq" AÇG yataqlarından hasilatın təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirilməsində böyük rol oynamaqda davam edir.

2021-ci ilin ilk üç rübündə AÇG-dən hasilat gündə orta hesabla 461 min barel və ya ümumilikdə təxminən 126 milyon barel, yəni 17 milyon ton olub. Belə ki, "Çıraq"dan gündəlik orta hasilat 29 min, "Mərkəzi Azəri" 109 min, "Qərbi Azəri" 115 min, "Şərqi Azəri" 77 min, "Dərinsulu Günəşli" 87 min və "Qərbi Çıraq" 44 min barel təşkil edib. Üçüncü rübün sonunda AÇG-də ümumilikdə 136 neft hasilatı quyusu, 30 su və 8 qaz injektor quyusu istismarda olub.

Hazırda AÇG özünün doqquzuncu platformasının - "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi çərçivəsində ilboyu tikintisi davam edən eyniadlı platformanın yolunu gözləyir.

Ən böyük qaz yatağımız "Şahdəniz" isə bu il yubileyini qeyd edib. "Şahdəniz"in işlənməsi, ümumiyyətlə, dünyanın neft-qaz sənayesində indiyə qədər həyata keçirilən ən böyük və ən mürəkkəb layihələrdən biridir. 25 il əvvəl - 1996-cı ildə Hasilatın Pay Bölgüsü Sazişi imzalananda heç kəs təxmin edə bilməzdi ki, cəmi üç il sonra, yəni 1999-cu ildə layihə çərçivəsində dünyanın ən böyük qaz-kondensat yataqlarından biri açılacaq. İlkin hesablamalara görə, 1 trilyon kubmetrdən artıq qaz və 2 milyard barel kondensat ehtiyatı olan bu dünya səviyyəli yataq layihənin operatoru olan bp şirkətinin 110 ildən çox davam edən fəaliyyət tarixində açdığı ən böyük qaz yatağıdır. AÇG-dən sonra "Şahdəniz" yatağı Azərbaycanda ölkə iqtisadiyyatını daha da gücləndirmiş ikinci ən böyük birbaşa xarici investisiya gətirən layihədir.

"Şahdəniz"in Azərbaycanın tarixində ilk dəfə enerji resurslarımızı birbaşa Avropaya çıxarmaqda da rolu əlamətdardır. Azərbaycan dünya neft-qaz sənayesinin yarandığı ölkədir və iki əsrə yaxındır ki, dünyaya yanacaq ixrac edir, amma ilk dəfədir ki, Avropa bazarları ilə birbaşa bağlantısı var. Bu da "Cənub qaz dəhlizi"nin başlanğıcı olan "Şahdəniz"in sayəsində mümkün olub.

Yanvar ayında Azərbaycan və Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında anlaşma memorandumunun imzalanması hər iki ölkənin həyatında əlamətdar tarixi hadisə oldu. Bu hadisə dostluğun və əməkdaşlığın daha da möhkəmləndirilməsinə istiqamətləndiyi üçün Azərbaycan və Türkmənistan prezidentləri birgə işlənəcək karbohidrogen yatağına "Dostluq" adını verdilər. İmzalanan sənəd strateji istiqamətdə - enerji sahəsində Türkmənistan-Azərbaycan tərəfdaşlığında prinsipcə yeni səhifə açdı.

Qazaxıstanın "Sətti" qazma qurğusunun Azərbaycanda təkmilləşdirilib və burada fəaliyyətə başlaması da neft-qaz sahəsində beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə aydın bir misaldır.

"Sətti" qurğusu Qazaxıstan "KMG Drilling and Services" MMT-yə məxsusdur. 2019-cu ilin yanvar ayında SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və "KazMunayGaz" arasında imzalanmış memoranduma, eləcə də həmin ilin fevralında "Kaspian Drilinq Kompani Limited" MMC ilə "KMG Drilling and Services" MMT arasında bağlanmış müqaviləyə əsasən, bu qurğu KDK-nin etibarlı idarəetməsinə verilib. Qazma qurğularının tikintisi və təkmilləşdirilməsi üzrə böyük təcrübəyə malik KDK "Sətti"nin modernləşdirilməsini də uğurla həyata keçirib. Təkmilləşdirilmə qurğunun texniki və istehsalat qabiliyyətini artırmış, onun 6 min metrdən çox dərinliyi olan kəşfiyyat quyularını təhlükəsiz və səmərəli qazmasına imkan yaratmışdır.

Hazırda "Sətti" Xəzərin Azərbaycan sektorunda qazma əməliyyatlarına cəlb olunub. Gələcəkdə bu qurğunun Xəzər dənizi akvatoriyasında digər əməliyyatlarda da istifadə ediləcəyi nəzərdə tutulub.

Başa çatmaqda olan 2021-ci il ölkəmizin neft-qaz sektorunda baş verən bir çox digər hadisələrlə də əlamətdar olub. Yataqlarda yeni quyular qazılıb və məhsul verib. Yeni əməkdaşlıq əlaqələri üçün danışıqlar aparılıb. Yeni görüşlər keçirilib və müqavilələr imzalanıb. Azərbaycan neftçisi yerin təkindən, dənizin dibindən çıxardığı qara qızıl və mavi yanacaqla ölkəmizin iqtisadi gücünü daha da artırıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Ukraynada işgüzar səfərdə olub

## Azərbaycanın və Ukraynanın prokurorluq orqanları arasında əməkdaşlıq haqqında saziş imzalanıb



Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ukraynanın paytaxtı Kiyevdə işgüzar səfərdə olub.

AZƏRTAC xəbər verir ki, Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Kiyevdə Ümummilli Lider Heydər Əliyevin adını daşıyan parkda Ulu Öndərin abidəsi önünə tər çiçəklər düzüb, əziz xatirəsini ehtiramla yad edib.

Sonra Azərbaycanın və Ukraynanın Baş prokurorluqları arasında geniş tərkibdə görüş keçirilib.

Qonaqları salamlayan Ukrayna Baş prokuroru İrina Venediktova noyabrın 30-da ölkəmizdə baş vermiş helikopter qəzası nəticəsində hərbi qulluqçuların həlak olması ilə bağlı azərbaycanlı həmkarına başsağlığı verib, həlak olanların ailə üzvlərinə səbir diləyib, yaralananların tezliklə sağalmasını arzulayıb.

İrina Venediktova bildirib ki, Ukraynanın Azərbaycanın Baş Prokurorluğu ilə kifayət qədər sıx əməkdaşlığı var. O, ölkələrimiz arasında bütün sahələrdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, o cümlədən hüquq mühafizə orqanları ilə əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib.

Səmimi qəbula görə ukraynalı həmkarına təşəkkürünü bildirən Azərbaycanın Baş prokuroru Kamran Əliyev qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə köklü hüquqi islahatlar aparılıb və bu istiqamətdə işlər davam etdirilir. İki ölkə arasında bütün sahələrdə olduğu kimi, hüquq sahəsində də əlaqələrin inkişaf etdiyini deyən Kamran Əliyev vurğulayıb ki, Azərbaycanın və Ukraynanın prokurorluq orqanları mütəşəkkil cinayətkarlığa qarşı birgə effektiv mübarizə aparırlar.

Görüşün sonunda Azərbaycanın və Ukraynanın Baş prokurorları Kamran Əliyev və İrina Venediktova iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlıq haqqında sazişi imzalayıblar.

Sənədə əsasən, tərəflər cinayətkarlığa, xüsusən də onun mütəşəkkil formalarına, o cümlədən ekstremizm, terrorizm, cinayət əməlləri nəticəsində əldə edilmiş gəlirlərin leqallaşdırılması (yuyulması), korrupsiya, mənimsəmə və dələduzluqla mübarizədə qarşılıqlı əməkdaşlıq edəcəklər. Həmçinin hər iki ölkənin prokurorluq orqanları iqtisadiyyat və yüksək texnologiyalar, insan alveri, qeyri-qanuni miqrasiya və digər cinayət növləri sahəsində cinayətlərə qarşı mübarizə aparacaq. Saziş həmçinin Azərbaycan və Ukrayna prokurorluqlarının fəaliyyəti, o cümlədən cinayət tendensiyaları, cinayətlərin açılması və qarşısının alınması üzrə təcrübə və məlumat mübadiləsini nəzərdə tutur.

Səfərin ikinci günü Azərbaycanın Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ukrayna Prezidenti Vladimir Zelenskinin iştirakı ilə Ukraynanın prokurorluq orqanlarının yaranması ilə bağlı keçirilən bayram tədbirində iştirak edib. Tədbirdə, həmçinin Ukrayna Ali Radasının spikeri Ruslan Stefançuk, Baş nazir Denis Şmıqal, deputatlar, Kiyevdə səfərdə olan xarici ölkələrin prokurorları iştirak ediblər.

Daha sonra Azərbaycanın Baş prokuroru Kamran Əliyev Kiyevdə keçirilən "Kleptokratiya və qeyri-qanuni maliyyə axınları" mövzusunda beynəlxalq forumun açılış mərasimində çıxış edib. Baş prokuror çıxışında bildirib ki, qanuni vəsaitləri qeyri-qanuni istiqamətlərə yönəltməklə, kleptokratiya və qeyri-qanuni maliyyə axınları ölkələrin sosial-iqtisadi rifahını təhdid edir. Milli iqtisadiyyatların artan qarşılıqlı əlaqə səviyyəsini nəzərə alaraq yüksək texnologiyaların sürətli inkişafı bu problemi daha da çətinləşdirir, onu transmilli təhlükəyə çevirir.

Kamran Əliyev çıxışında kleptokratiya və qeyri-qanuni maliyyə axınlarının yaratdığı təhlükələrdən danışıb, habelə vurğulayıb ki, Azərbaycan onlara qarşı səmərəli mübarizə aparmaq üçün beynəlxalq əməkdaşlığı gücləndirib, qanunvericilik, institusional və əməli tədbirlər həyata keçirib. Bununla bağlı Azərbaycan bir sıra beynəlxalq konvensiyalara qoşulub, beynəlxalq müqavilələri ratifikasiya edib. Bundan əlavə, Azərbaycan son illərdə maliyyə sisteminin şəffaflığının artırılması və dövlət idarəçiliyində hesabatlılığın artırılması məqsədilə bir sıra dövlət proqramları və sənədlər qəbul edib, qanunvericiliyə dəyişikliklər olunub, struktur islahatları aparılıb.

# Azərbaycan-Pakistan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının yeddinci iclasının protokolu imzalanıb




Azərbaycan-Pakistan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının Pakistan İslam Respublikası tərəfindən həmsədri, Pakistanın müdafiə istehsalatı naziri Zobaida Calalın başçılıq etdiyi nümayəndə heyəti noyabrın 29-dan dekabrın 3-dək Azərbaycan-Pakistan Birgə Komissiyasının 7-ci iclası ilə əlaqədar ölkəmizdə rəsmi səfərdədir.

Azərbaycanın Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, xanım Zobaida Calalın başçılıq etdiyi nümayəndə heyətinin üzvləri səfər çərçivəsində Fəxri xiyabana gələrək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin məzarı önünə əklil qoyublar.

Sonra Şəhidlər xiyabanını ziyarət edən qonaqlar vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Dekabrın 1-də keçirilmiş Azərbaycan-Pakistan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının 7-ci iclasında komissiyanın Azərbaycan Respublikası tərəfindən həmsədri, müdafiə sənayesi naziri Mədət Quliyev və Pakistan İslam Respublikası tərəfindən həmsədri Zobaida Calal, ilk növbədə, tədbirə qatılan 23 qurumun səlahiyyətli nümayəndələrini, həmçinin iclasa Pakistandan onlayn qoşulan iştirakçıları və digər qonaqları salamlayıblar.

Açılış nitqi ilə çıxış edən müdafiə sənayesi naziri Mədət Quliyev əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Ulu Öndərin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin davam etdirdiyi xalqlarımız və dövlətlərimiz arasındakı əlaqələrdən bəhs edib. Nazir dövlətimizin başçısının Pakistan Prezidenti Arif Alvi və Baş naziri İmran Xan ilə şəxsi dostluq və qardaşlıq münasibətlərinin ölkələrimiz arasındakı birliyin bugünkü yüksək səviyyəyə çatmasında mühüm rol oynadığını qeyd edib. Nazir 44 günlük Vətən müharibəsi dövründə Pakistanın Azərbaycanın ədalətli mövqeyinə verdiyi davamlı siyasi-mənəvi dəstəyə və qardaş mövqeyinə görə bir daha minnətdarlığını bildirərək Azərbaycan xalqının bunu yüksək qiymətləndirdiyini vurğulayıb.

Toplantı çərçivəsində iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsi, ticarət dövriyyəsinin həcminin artırılması, biznes dairələri arasında əlaqələrin səviyyəsinin qaldırılması ilə bağlı gələcək perspektivlər müzakirə olunub, bank, enerji, müdafiə sənayesi, nəqliyyat və rabitə, kosmik fəzadan dinc məqsədlərlə istifadə, kənd təsərrüfatı, gənclər və idman, ədliyyə, elm və təhsil, səhiyyə, qida təhlükəsizliyi sahələri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Dekabrın 2-də Azərbaycan-Pakistan Birgə Komissiyasının yekun iclası olub. Tədbirdə çıxış edən müdafiə sənayesi naziri Mədət Quliyev ticarət, enerji, nəqliyyat, turizm, təhsil və hərbi-texniki sahələr də daxil olmaqla əməkdaşlıq münasibətlərinin bütün sahələr üzrə genişləndirilməsinin əhəmiyyətini vurğulayıb və ölkələrimizin həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlarda daim bir-birini dəstəklədiklərini xüsusi qeyd edib.

Yüksək qonaqpərvərliyə görə nazirə minnətdarlığını bildirən xanım Zobaida Cəlal Pakistan və Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinin dərin tarixi köklərə söykəndiyini vurğulayaraq bu münasibətlərin əbədi və sarsılmaz olacağından əminliyini ifadə edib. Zobaida Cəlal Azərbaycan-Pakistan Birgə Komissiyasının iclasının da əlaqələrimizin genişləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirib. O, səfərdən məmnunluğunu ifadə edərək Azərbaycan-Pakistan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının 7-ci iclasının əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verəcəyini söyləyib.

Sonda Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının 7-ci iclasının yekununa dair protokol imzalanıb.

# Azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə tədbirlər davam etdirilir

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri Türkiyənin hərbi istehkamçıları ilə birgə azad olunmuş ərazilərimizin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərini davam etdirir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə yollar minalardan təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqeləri istiqamətində yeni təminat yollarının çəkilməsi üzrə mühəndis işləri icra edilir.

Noyabrın 22-dən dekabrın 2-dək yalnız Tərtər-Goranboy rayonları istiqamətində yeni yolların çəkilməsi zamanı qarşı tərəfdən qurulmuş Ermənistan istehsalı olan 537 ədəd piyada əleyhinə, 101 ədəd tank əleyhinə mina aşkarlanaraq zərərsizləşdirilib.

İşğaldan azad olunmuş ərazilərimizdə mühəndis-istehkam bölmələri tərəfindən bugünədək ümumilikdə 13177 hektar ərazi minalardan təmizlənib, 616 kilometr yol çəkilib, 16860 mina və partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Yaşayış məntəqələrimizin, əkin üçün yararlı olan ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərinə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin sərəncamına verilən Türkiyənin Milli Müdafiə Nazirliyinin tabeliyində olan ASFAT AŞ şirkəti tərəfindən istehsal olunan "MEMATT" (Mexanik Mina Təmizləmə Təchizatı) texnikaları da cəlb edilib.

Bölmələrimizin azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə tədbirləri davam etdirilir.

# Hərbi zəfərin diplomatik təntənəsi

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, postmünaqişə dövründə regional əməkdaşlıqlar üçün əsaslı zəmin yaranması, əlverişli kommunikasiya imkanlarından bütün maraqlı tərəflərin istifadə edə bilməsi, bölgənin gələcəyinin aydın proqnozlaşdırılan vəziyyətə gətirilməsi və sülhün, sabitliyin təmin olunması Azərbaycanın ən böyük istəyidir.

Vətən müharibəsindəki qələbəmizdən ötən bir il ərzində ölkəmiz müharibənin fəsadlarının aradan qaldırılması və kommunikasiyaların açılması məsələlərində maksimum konstruktivlik nümayiş etdirib. Azərbaycan bu gün də öz mövqeyinə sadiqdir. Onu da qeyd edək ki, bu məqamlar 2020-ci il 9 noyabr bəyanatından irəli gələn və hələ yerinə yetirilməmiş qalan bəzi müddəalar arasında vacibliyi ilə seçilir. Həmin bəyanatda əksini tapmış digər məsələlər isə artıq icra olunub.

Prezident İlham Əliyev torpaqlarımızın işğaldan azad edilməsindən sonra regionda yeni dövrün başlandığını və bu dövrü müsbət istiqamətə yönləndirmək zərurətini bir çox çıxışlarında xüsusi vurğulayıb: "Hər halda Ermənistanla Azərbaycan arasındakı bu ədavət əbədi olmamalıdır. Bütün bu dağıntılara, barbarlığa, vəhşiliyə baxmayaraq, biz gələcəyə baxmalıyıq" - oktyabrın əvvəlində Cəbrayılda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı dövlət rəhbərimiz belə demişdi və onu da xüsusi diqqətə çəkmişdi ki, Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir. "Azərbaycan tərəfində siyasi iradə var. Ermənistan tərəfində də olarsa, hesab edirəm ki, iki ölkə özləri heç bir vasitəçisiz bu məsələləri həll edə bilər və bölgədə uzunmüddətli sülh ola bilər", - deyə Prezident İlham Əliyev bəyan etmişdi.

## Mühüm nəticə

Ölkəmiz dəfələrlə rəsmi səviyyədə Azərbaycan və Ermənistan arasında sərhədlərin təxirəsalınmaz delimitasiyasının vacibliyini bildirib. Qarşıdurmalara son qoymaq, bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaq, gələcəkdə qonşu kimi yaşamağa təşviq etmək üçün Ermənistana sülh razılaşması üzərində işə başlamağı təklif edib.

Soçi görüşü nəticəsində qəbul edilmiş üçtərəfli bəyanatda Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiya yaradılması məsələsi qeyd olunur. Bu, tərəflər arasında sərhədlərin müəyyənləşməsi ilə bağlı ümumi razılaşmanın əldə olunmasına dəlalət edir. Eyni zamanda bəyanatda iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutan layihələrin başlanması barədə müsbət məqamlar da öz əksini tapıb.

2021-ci il 26 noyabr bəyanatında Qarabağ adının keçməməsi artıq bu münaqişənin tarixə qovuşduğunu bir daha sübuta yetirir. Bəyanatda Ermənistan tərəfinin iddia etdiyi əsir və ya girovlar məsələsinə toxunulmaması da mühüm məqamdır. Bütün bunlar müzakirələr zamanı Azərbaycanın istəklərinin qəbul edildiyini, qarşı tərəfin konstruktiv dialoqa, vəziyyətin nizamlanmasına xələl gətirə biləcək heç bir qeyd-şərtinə, iddialarına yol verilmədiyini göstərir.

Görüşdən sonra mətbuata açıqlamalar zamanı Rusiya Prezidenti Vladimir Putin də ilin sonuna kimi sərhədlərin delimitasiyası və demarkasiyası mexanizmlərinin yaradılacağını bildirdi. Azərbaycanın əsas istəklərindən olan bu məsələ ilə Ermənistanın da razılaşması və bunu imzası ilə təsdiqləməsi özlüyündə əhəmiyyətli nəticə deməkdir. Tərəflər kommunikasiyaların bərpası üzrə konkret layihələrin tezliklə həyata keçirilməsinin zəruriliyini vurğulayırlar.

## Zəngəzur dəhlizinin açılması perspektivi çox yaxındır

Bəyanatda 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il üçtərəfli bəyanatlarının icrasına istinad olunması, Rusiya Prezidentinin öz çıxışında bir neçə dəfə dəhliz ifadəsindən istifadə etməsi Zəngəzur dəhlizi məsələsinin qüvvədə olduğunu və rəsmi Moskvanın bu məsələdə Azərbaycanın regionun gələcəyinə xidmət edən konstruktiv mövqeyini dəstəklədiyini göstərir. Bu da təbiidir. Çünki ölkəmizin öz qələbəsi ilə yaratdığı tarixi reallıqlar münaqişəyə son qoymaqla yanaşı, bütün region dövlətləri üçün böyük perspektivlər açır. Ermənistanın qeyri-konstruktiv mövqeyi, işğal siyasəti üzündən illərlə həll edilməmiş qalan bu münaqişə Cənubi Qafqazın təhlükəsizliyini təhdid altında saxlayan əsas amillərdən olub. Münaqişə kommunikasiya imkanlarını illərdir maraqlı tərəflərin üzünə qapadıb. Bir çox iqtisadi layihələrin icrasına mane olub. Yaxud onların xərclərini artırıb, səmərəliliyinə mənfi təsir göstərib. Ümumilikdə münaqişə regionun sürətli inkişafına ciddi əngəl törədib. Bu gün Azərbaycanın yaratdığı yeni reallıqlar gələcəklə bağlı strateji inkişaf hədəflərinə malik bütün region dövlətlərinin maraqlarına uyğundur. Ona görə də Azərbaycanın mövqeyinə, tutduğu yola böyük həssaslıq göstərilir, Prezident İlham Əliyevin mütərəqqi çağırışları dəstəklənir.

Böyük iqtisadi və siyasi imkanlar yaradacaq Zəngəzur dəhlizinin açılması region dövlətlərinin hər birinin marağındadır. Azərbaycan Prezidenti hansı yolla olursa-olsun, Zəngəzur dəhlizinin açılacağını bəyan edib. Ermənistan tərəfinin müəyyən iddialarla yaratdığı süni maneələrə baxmayaraq, Azərbaycan ölkə rəhbərimizin düşünülmüş siyasəti ilə bu hədəfinə də addım-addım yaxınlaşır.

Noyabrın 16-da Ermənistanın törətdiyi hərbi təxribata layiqli cavabdan sonra qonşu dövlətin rəsmilərinin bu məsələdə müxtəlif manipulyasiyalar etmək, təxribatlar törətməklə razılaşmalardan yayınmaq imkanları getdikcə məhdudlaşır. 26 noyabr üçtərəfli görüşündə Azərbaycanın qazandığı diplomatik üstünlük bir daha göstərir ki, Zəngəzur dəhlizinin açılması perspektivi artıq çox yaxındır.

## Müzakirələr zəruridir

Soçi razılaşması Azərbaycanın regiondakı mövqeyini daha da gücləndirdi. Rəsmi Bakı ilə Moskvanın bir çox məsələlər üzrə baxışlarının, maraqlarının üst-üstə düşdüyünü göstərdi. Eyni zamanda bu, Azərbaycanla Rusiya arasındakı strateji tərəfdaşlıq münasibətlərini, qarşılıqlı faydalı əlaqələri bir daha nümayiş etdirdi.

Azərbaycan Ermənistanla münasibətlərin tənzimlənməsində Rusiyanın səylərini hər zaman yüksək qiymətləndirib. Soçi görüşündən sonra media nümayəndələri qarşısında çıxışı zamanı dövlət rəhbərimiz bu məsələyə bir daha toxunub. 2020-ci il 9 noyabr bəyanatından sonra Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdə ciddi insidentin olmadığını, baş verən kiçik insidentlərin isə sistemli xarakter daşımadığını qeyd edib. Prezident İlham Əliyev belə bir mövqeyi bir daha diqqətə çatdırıb ki, Azərbaycan-Ermənistan dövlət sərhədində baş vermiş son toqquşmalar risklərə nəzarət etmək, onları minimallaşdırmaq və yekun sülh razılaşması üzərində işləməklə bağlı məsələlərin müzakirəsini, o cümlədən üçtərəfli formatda müzakirələrin aparılmasını zəruri edir.

Soçi görüşü Azərbaycan və Rusiya prezidentləri arasında ikitərəfli formatda danışıqları və müzakirələri, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və inkişaf perspektivlərinə nəzər salınması baxımından da kifayət qədər faydalı oldu. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. İkitərəfli əlqələrin inkişaf dinamikası olduqca müsbətdir. Ölkələrimiz tərəflər arasında əməkdaşlığın bütün istiqamətlər üzrə inkişaf səviyyəsinin yüksəldilməsində maraqlıdırlar.

## Azərbaycan-Rusiya münasibətləri yüksək səviyyədədir

Azərbaycan və Rusiya rəhbərlərinin strateji tərəfdaşlığa, iki dövlətin qarşılıqlı faydalarına xidmət edən məqsədyönlü siyasəti sayəsində bu gün ölkələrimiz arasında münasibətlər müstəqillik tariximizin ən yüksək dövründədir. Hökumətlərarası komissiyaların fəaliyyəti ölkələrimiz arasında iqtisadi potensialın düzgün dəyərləndirilməsinə və əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə imkan yaradır.

Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Pandemiyadan irəli gələn müəyyən məhdudiyyətlərə baxmayaraq, cari ilin ilk doqquz ayı ərzində Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 11 faiz artıb. Ölkəmizdə Rusiyanın 900 müəssisəsi fəaliyyətdədir.

Hazırda Azərbaycanla Rusiya arasında 7 yol xəritəsi uğurla icra olunmaqdadır. Bu yol xəritələri iqtisadiyyat və humanitar sahələrin əksər istiqamətlərini əks etdirir. Təhsil sahəsində əməkdaşlıq məsələləri burada xüsusi yer tutur. Qeyd edək ki, hazırda Azərbaycanda 340-dan çox məktəbdə rus dilində tədrisin aparılmasına şərait yaradılıb. Azərbaycan məktəblilərinin 34 faizi rus dilini mükəmməl öyrənir. Rusiyada da azərbaycanlı tələbələrin təhsil almasına əlverişli şərait yaradılıb. 15 minə yaxın azərbaycanlı gənc hazırda Rusiyanın müxtəlif ali məktəblərində peşəkar bilik və bacarıqlara yiyələnir.

Bakıda Rusiyanın bir sıra aparıcı universitetlərinin filialları fəaliyyət göstərir və yüksəkixtisaslı mütəxəssislər hazırlanır. Rusiyada Azərbaycanın ticarət evləri açılır. Qeyri-neft məhsullarımızın, bu məhsulların ənənəvi bazarda geniş təşviqi məqsədilə ardıcıl işlər görülür. Rusiyanın ayrı-ayrı müəssisələrinin Azərbaycanda filialları açılır. İşğaldan azad olunmuş ərazilərimizdə "KamAZ" zavodunun filialının yaradılması ilə bağlı razılığın əldə olunması da mühüm məqamdır. Rusiyanın xeyli müəssisəsi Azərbaycana investisiya qoyub.

## Diplomatik nailiyyətlər

Son bir həftədə Rusiya Prezidentinin humanitar əməkdaşlıq üzrə xüsusi nümayəndəsinin, Baş nazirin müavininin Elmlər Akademiyasının prezidentinin Azərbaycana gəlişi, dövlətimizin başçısı ilə keçirilən görüşlər iki ölkənin rəsmi şəxsləri arasında qarşılıqlı səfərlərin dinamikasının yüksək olduğunu göstərir. Rusiya ekspert mərkəzinin, Rosekzimbankın, ümumilikdə Rusiyanın 30-dan çox şirkətinin iştirak etdiyi biznes-konfransın təşkili də ölkələrimiz arasındakı münasibətlərin, qarşılıqlı faydalı əməkdaşlığın daim artan inkişaf səviyyəsindən xəbər verir.

Bütün bunlar, eləcə də Rusiya Prezidentinin təşəbbüsü ilə keçirilmiş Soçi görüşündə əldə olunan nəticələr Vətən müharibəsindəki qələbəmizdən sonra Azərbaycanın diplomatik müstəvidə də nailiyyətlərinin ardıcıl olaraq davam etdiyini göstərir. Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın dəstəyinə, zəngin siyasi təcrübəsinə əsaslanaraq milli maraqlarımızı bütün müzakirələrdə qətiyyətlə təmsil edir. Soçi görüşünün nəticələri də qalib ölkə olan Azərbaycanın mənafelərinə uyğundur və yeni uğurlarının təcəssümüdür.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan UNESCO-nun Silahlı münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə üzv seçilib

2021-ci il noyabrın 30-dan dekabrın 1-dək UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi üzrə 1954-cü il Haaqa Konvensiyasının İkinci Protokoluna tərəf dövlətlərin 9-cu iclası keçirilib. Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, iclas çərçivəsində noyabrın 30-da UNESCO-nun Silahlı münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə seçkilər keçirilib. Komitə üzvlüyünə Azərbaycan Respublikasının da namizədliyi irəli sürülüb və səsvermədə iştirak edən dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə Azərbaycan Respublikası növbəti 4 il müddətinə komitəyə üzv seçilib.

Xatırladaq ki, bir müddət bundan əvvəl Azərbaycan Respublikası 2021-2025-ci illər üzrə UNESCO-nun İcraiyyə Şurasına da üzv seçilib.

Hər iki seçkilərdə əldə edilmiş yüksək səs sayına əsaslanan qələbələr Azərbaycanın UNESCO dəyərlərinə sadiqliyinin beynəlxalq ictimaiyyət tərəfindən təqdir edilməsinin göstəricisidir.

# PUA bölmələri ilə təlim-məşq uçuşları yerinə yetirilib

Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş hazırlığı planına uyğun olaraq Bayraktar pilotsuz uçuş aparatları (PUA) ilə təlim-məşq uçuşları icra edilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş atışlı təlim-məşq uçuşlarında digər qoşun növü bölmələri ilə qarşılıqlı əlaqədə hava kəşfiyyatı aparılmaqla şərti düşmənin yerüstü hədəflərinin koordinatları təyin edilərək dəqiq zərbələrlə məhv olunub.

Aviasiya vasitələrinin uçuşları müəyyənləşdirilmiş marşrutlar üzrə həyata keçirilib. Döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlərdə PUA operatorları tapşırıqları uğurla yerinə yetiriblər.

# Bakı Kitab Mərkəzində tanınmış ingilis yazıçısı Çarli Makizin Azərbaycan dilinə tərcümə olunmuş əsərinin təqdimatı keçirilib

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva təqdimat mərasimində iştirak edib

Bakı Kitab Mərkəzində tanınmış ingilis yazıçısı və rəssamı Çarli Makizin "Oğlan, köstəbək, tülkü və at" kitabının Azərbaycan dilinə tərcümə olunmuş nəşrinin təqdimatı keçirilib. Nəşr Leyla Əliyevanın təşəbbüsü ilə Bakı Kitab Mərkəzinin və "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə çap olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva təqdimat mərasimində iştirak edib.

Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva kitabın ərsəyə gəlməsinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya təşəkkür edərək bildirib ki, nəşr xeyirxahlıqdan, sevgidən, dostluqdan, əbədi dəyərlərdən - hamımızı birləşdirən və əlaqələndirən dəyərlərdən bəhs edir. "Kitabın ilk baxışdan uşaqlar üçün yazıldığı görünsə də, amma əslində, uşaqlar üçün deyil, hamımız üçündür. Söhbət əbədi dəyərlərdən gedir".





Sonra kitabın müəllifi Çarli Makizin qonaqlara ünvanladığı videomüraciət nümayiş edilib. O, müraciətində kitabın Azərbaycan dilinə tərcümə edilməsində əməyi keçən hər kəsə minnətdarlığını bildirib.

Mərasimdə Bakı şəhəri 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Çiçəyim" uşaq teatr studiyasının aktyorları kitabdan səhnəciklər göstəriblər.

Qeyd edək ki, Çarli Makizinin "Oğlan, köstəbək, tülkü və at" kitabı bu günə qədər İngiltərədə bestseller olaraq qalır. Kitab balaca oğlan və onun üç dostu - köstəbək, tülkü və atdan bəhs edir. Hekayə boyu oğlan dostlarına müxtəlif suallar verir və onlardan həmin suallara çox məntiqli, sadə və dərin cavablar alır. Dörd dost arasında olan münasibətlər oxuculara inam, dostluq, xeyirxahlıq, cəsarət, sevgi, dürüstlük, mehribanlıq, mərhəmət kimi anlayışlardan bəhs edir.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş kitabdakı bütün rəsmlər Çarli Makizi tərəfindən çəkilib.

# Daşkənddə "Nizami Gəncəvi və Əlişir Nəvai mədəniyyət və ədəbiyyat günləri"nin açılış mərasimi olub

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə "Nizami Gəncəvi və Əlişir Nəvai mədəniyyət və ədəbiyyat günləri"nin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, AMM-dəki mərasimdə Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, ictimaiyyətin nümayəndələri, jurnalistlər iştirak ediblər.

Mədəniyyət və ədəbiyyat günlərinə Azərbaycanın və Özbəkistanın mədəniyyət nazirlikləri, hər iki ölkənin yazıçılar birlikləri, Azərbaycanın Özbəkistandakı səfirliyi, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyəti, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti, Əbu Reyhan Biruni adına Özbəkistan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu, Özbəkistan Dövlət Konservatoriyası dəstək göstərir.



Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov mərasim iştirakçılarını salamlayaraq bildirib ki, dünya ədəbiyyatı tarixinə Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Zahirəddin Babur, Əlişir Nəvai və başqa məşhur şairlər verən Azərbaycan və Özbəkistan öz qədim tarixi və mədəniyyəti ilə məşhurdur. O deyib ki, yazıçı və şairlərimizlə bərabər dövlət başçılarımızı da dostluq və qardaşlıq münasibətləri birləşdirir. Belə ki, Ulu Öndər Heydər Əliyevlə Özbəkistanın sabiq rəhbərləri Şərəf Rəşidov və İslam Kərimovun, Azərbaycanın və Özbəkistanın hazırkı dövlət başçıları İlham Əliyevlə Şavkat Mirziyoyevin dostluğu bir örnəkdir.

S.Abbasov Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə böyük Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyi ilə bağlı ölkəmizdə "Nizami Gəncəvi ili" elan edildiyini və Özbəkistanda da böyük özbək şairi Əlişir Nəvainin 580 illik yubileyinin geniş qeyd olunması ilə bağlı Prezident Şavkat Mirziyoyev tərəfindən sərəncam imzalandığını iştirakçıların diqqətinə çatdırıb. O, Nizami Gəncəvi və Əlişir Nəvainin xalqlarımızın fəxri olduğunu və onların yaradıcılığının türk dünyası poeziyasının zirvəsi olduğunu qeyd edərək, hər iki mütəfəkkirin dünya ədəbiyyatına verdiyi töhfələrdən danışıb, "Xəmsə"çilik fəaliyyəti barədə fikirlərini bölüşüb.

Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti, Əbu Reyhan Biruni adına Şərqşünaslıq İnstitutunun direktoru Baxrom Abduhalimov Azərbaycanla Özbəkistan arasında elm, ədəbiyyat, əlyazmalar sahəsində əməkdaşlıqdan danışıb, Azərbaycan və Özbəkistanın klassik şairlərinin əsərlərinin çap olunması istiqamətində görülən işləri təqdir edib. O, AMM-in təşəbbüsü ilə Nizami Gəncəvinin Özbəkistanda ilk dəfə olaraq çap olunan "Xəmsə"ni ölkənin mədəni həyatında əlamətdar hadisə adlandırıb, digər Azərbaycan klassik şairlərinin əsərlərinin çapının tədqiqatçılar üçün əhəmiyyətinə toxunub.

Azərbaycan Milli Məclisinin deputatı, akademik Nizami Cəfərov Nizami Gəncəvi və Əlişir Nəvainin əsərlərinə nəzər salaraq onların ədəbiyyatımıza gətirdiyi yeniliklər, poeziyamızın zənginləşməsində xidmətlərindən danışıb. Akademik vurğulayıb ki, Nizaminin "Xəmsə"si olmasaydı, təbii ki, Əlişir Nəvainin də "Xəmsə"si olmayacaqdı. Əl-Fərabi də, Nizami Gəncəvi də, Əlişir Nəvai də türkdür. Əl Fərabi "Xəmsə"ni ərəbcə, Nizami Gəncəvi farsca, Əlişir Nəvai isə türkcə yazıb. Belə müqayisələri çox çəkmək olar deyə Nizami Cəfərov qeyd edib.

Azərbaycan Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli AMM-in fəaliyyətini yüksək qiymətləndirib, belə tədbirlərin ölkələrimiz arasında mədəni əlaqələrin dərinləşməsinə təkan verdiyini qeyd edib. Nazirlik rəsmisi Nizami Gəncəvi və Əlişir Nəvai kimi şairlərin türk dünyasının sərvəti olduğunu və zaman-zaman şairlər, ədiblər, bəstəkarlar bu mütəfəkkirlərin əsərlərindən qidalanaraq yeni-yeni sənət əsərləri yaratdıqlarını söyləyib.

Azərbaycan Yazıçılar Birliyinin məsləhətçisi, yazıçı-tədqiqatçı Sayman Aruz Nizami Gəncəvi və Əlişir Nəvainin əsərlərini müqayisə edib. "Şeyx Nizamini Azərbaycan dövlətinin əsas manifestidir adlandırsaq yanılmarıq. Biz bu gün öz mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və Nizami Gəncəvi də bu mədəniyyətin əsas nəzəriyyəçisidir", - deyə o söyləyib.

Özbəkistan Dövlət Mədəniyyət və Sənət Universitetinin rektoru, professor İbrahim Yuldaşev, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov, Daşkənddəki Nəvai adına Milli Kitabxananın direktoru Umida Keşabayeva və başqaları Nizami Gəncəvi və Əlişir Nəvainin dünya ədəbiyyatı tarixindəki yeri və mövqeyi haqqında danışıblar, bu şairlərin ayrı-ayrı əsərlərini təhlil ediblər.

Tədbir çərçivəsində Özbəkistanın ali təhsil müəssisələri tələbələrinin iştirakı ilə Nizami Gəncəvi və Əlişir Nəvaiyə həsr olunmuş şeir kompozisiyası səsləndirilib.

Daha sonra Özbəkistanın "Soqdiana" Xalq Çalğı Alətləri Ansamblının iştirakı ilə Nizami Gəncəvi və Əlişir Nəvainin əsərləri əsasında hazırlanan konsert proqramı təqdim olunub. Konsertin bədii rəhbəri Özbəkistanın Əməkdar artisti, professor Firuza Abduraxmanova, dirijor Qahraman Bazarov olub.

# Heydər Əliyev Fondu Bakıdakı katolik kilsəsində bərpa işlərini başa çatdırıb



Heydər Əliyev Fondu Bakı şəhərindəki Müqəddəs Məryəm katolik kilsəsində aparılan cari təmir-bərpa işlərini başa çatdırıb.

AZƏRTAC Fondun "Feysbuk" səhifəsinə istinadla xəbər verir ki, yüzlərlə katolikin ibadət etdiyi kilsədəki bərpa işləri zamanı hidroizolyasiya təmin olunmaqla dam örtüyü əsaslı təmir edilib.

Qeyd edək ki, kilsə 1912-ci ildə inşa edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra 1934-cü ildə bir çox dini abidələr kimi, bu kilsə də dağıdılmışdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə dini məbədə ehtiyac duyan katoliklər üçün Bakıda yeni kilsənin inşa edilməsi məqsədilə ərazi ayrılmışdı. Müqəddəs Məryəm katolik kilsəsi 2008-ci ilin mart ayından istifadəyə verilib.

Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasındakı əməkdaşlıqdan irəli gələrək fond tərəfindən 2008-ci ilin sentyabrında katolik kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilib, eyni zamanda məbədin fasadında keramik panno yerləşdirilmişdi.

Xatırladaq ki, Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasındakı anlaşma memorandumu müəyyənləşdirilmiş sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsi, sosial və dini təyinatlı obyektlərə yardımla yanaşı, Azərbaycanda məskunlaşan xalqların etnomədəni inkişafına yönələn tədbirlərin həyata keçirilməsini də nəzərdə tutur.

# "Kremerata Baltika" kamera orkestri Heydər Əliyev Mərkəzində çıxış edib

Heydər Əliyev Mərkəzində "Qremmi" mükafatı laureatı "Kremerata Baltika" kamera orkestrinin konserti olub.



AZƏRTAC xəbər verir ki, klassik musiqi gecəsində Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə Nino Rota, Frederik Şopen, Feliks Mendelsonun əsərləri səsləndirilib.

Konsertdə solistlər - beynəlxalq müsabiqələr laureatı Georgiy Osokin (fortepiano), Əməkdar artist Elvin Hoca Qəniyev (skripka) çıxış ediblər.

Həzin musiqi, simli alətlərin harmonik ifası, akustika gecəyə xüsusi ab-hava qatıb.

"Nizami Gəncəvi ili" çərçivəsində keçirilən konsert proqramında həmçinin Fikrət Əmirovun "Nizami" simfoniyası da yer alıb. Sonda səsləndirilən Fikrət Əmirovun "Nizami" simfoniyası tamaşaçılarda fəxarət hissi doğurub. Qeyd edək ki, Fikrət Əmirov Nizami Gəncəvinin xatirəsinə həsr edilmiş simfoniyanı şairin anadan olmasının 800 illiyi münasibətilə yazıb. Bəstəkar simfoniya üzərində dəfələrlə işləyib. Simfoniyada Nizaminin ümumiləşmiş obrazı yaradılıb. Bəstəkar şairin obrazına ehtiramla yanaşıb və ona xüsusi münasibət bəsləyib ki, bu da əsərə səmimilik, incəlik, gənclik təravəti, lirik hərarət və romantik ruh verib. Eyni zamanda simfoniya özünün fəlsəfi mənası və lakonik ifadə tərzi ilə diqqəti cəlb edir. Buna görə də musiqidə ifadə olunan gizli hisslər, düşüncələr, əhvalatlar da təbii qavranılır. Elə bu səbəblərdən də simfoniya hər dəfə səslənəndə dinləyici qəlbini riqqətə gətirir.

Xatırladaq ki, dünyada məşhur olan skripka ifaçısı Gidon Kremer 1997-ci ildə yaratdığı "Kremerata Baltika" kamera orkestrinə Latviya, Litva və Estoniyadan olan 23 istedadlı gənc musiqiçini cəlb etmişdir. "Kremerata Baltika" ilk dəfə 1997-ci ildə Avstriyada keçirilən "Lokenhaus" festivalındakı çıxışı ilə yadda qalıb. Tamaşaçıların rəğbətini qazanan musiqi kollektivi dünyada fərqli ifaları ilə seçilir. Bu gün Avropanın tanınmış orkestrlərindən olan "Kremerata Baltika" dünyanın 50-dən çox ölkəsində, 600 şəhərində mindən çox konsert proqramı ilə çıxış edib.

3 Dekabr Beynəlxalq Əlillər Günüdür

# «Danışan baxışlar», «qızıl əllər»...

## Hərəkətləri məhdud, söhbətləri "sözsüz və səssiz" olanlar heç də əlil deyillər



Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin 10 faizi müxtəlif dərəcəli əlildir. Azərbaycanda isə onların sayı 400 mindən çoxdur. Fiziki cəhətdən qüsurlu insanların cəmiyyətə inteqrasiyası üçün müəyyən layihələr həyata keçirilsə də, bu problem qlobal şəkildə davam etməkdədir.

Eşitməyən və danışmayanların, fiziki hərəkətdən geri qalan, lakin düşüncələrini jestlə izah edənlərin, həmçinin "əlləri qızıl kəsən" bu zərgər barmaqlıların xüsusi məktəbləri ilə yanaşı, həm də öz dünyaları var...

Prezident İlham Əliyevin əlillərə, yəni hərəkət məhdudiyyətli vətəndaşlara dövlət qayğısının bariz nümunəsi olan "Mən çox istəyirəm ki, Azərbaycanda yaşayan bütün əlillər cəmiyyətdə fəal rol oynasınlar. Yəni onlar cəmiyyətdən təcrid edilmiş vəziyyətə düşməsinlər" fikri belə kateqoriyadan olan insanların həyat, yaşamaq eşqini dəfələrlə gücləndirir. Çünki bu fikrin arxasında konkret iş, əməli fəaliyyət dayanır.

Azərbaycanın sosial dövlət statusunun mühüm xüsusiyyətlərindən biri ölkəmizdə əlilliyi olan şəxslərin hüquqlarının, maddi və mənəvi tələbatlarının dolğun şəkildə təmin edilməsi məqsədilə fəal və məqsədyönlü siyasətin həyata keçirilməsi ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin əlilliyi olan insanlara diqqət və qayğısı əsasında formalaşan bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 18 ildir ki, yüksək səviyyədə davam etdirilir. Həmin insanların sosial müdafiəsinə, tibbi-sosial reabilitasiyasına yönələn tədbirlər ildən-ilə gücləndirilir.

Prezident İlham Əliyevin tapşırığı ilə sosial islahatların yeni mərhələsi kimi, 2022-ci ilin əvvəlindən növbəti sosial islahat paketinin reallaşdırılması çərçivəsində pensiya, müavinət, təqaüd, əməkhaqqı, sosial yardımlar artırılacaq. O cümlədən əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərdə də növbəti artımlar olacaq.

2021-ci ildə də 3 min mənzilin (2018-ci ilə nisbətən 5 dəfə çox) müharibə əlilləri və şəhid ailələrinə verilməsi də nəzərdə tutulub. Bu ilin ötən dövründə artıq 2500 mənzil müharibə əlilləri və şəhid ailələrinə, digər həssas qruplara verilib. Ümumilikdə indiyədək 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. İndiyədək 7350-dən çox, o cümlədən bu il 164 müharibə əlili dövlət büdcəsi hesabına minik avtomobili ilə təmin edilib.

Prezident İlham Əliyevin tapşırığına əsasən, 2019-2021-ci illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir olunaraq yenidən qurulub və ən müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilib.

Prezidentin iştirakı ilə bu il fevralın 25-də açılan Şağan Reabilitasiya Pansionatında müasir tələblərə uyğun şərait yaradılıb. 128 palatadan ibarət 250 çarpayılıq reabilitasiya müəssisəsi ildə 5 minə yaxın əlilliyi olan şəxsə müasir metodika və texnologiyalardan istifadə olunmaqla reabilitasiya xidmətləri göstərməyə imkan verir. Yeni açılan 200 çarpayılıq Mərdəkan Reabilitasiya Pansionatının isə ildə 4500 şəxsə xidmət etmək imkanı var.

Əsas hədəf həm reabilitasiya xidmətləri göstərilən şəxslərin illik sayını 3 dəfə artıraraq 30 minə çatdırılması, həm də xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Postmüharibə dövründə həmin reabilitasiya müəssisələrində 1600 qaziyə reabilitasiya xidmətləri göstərilib.

Sosial Xidmətlər Agentliyinin sosial xidmət sifarişi əsasında icra olunan "Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili" layihəsinə 6200 uşaq cəlb edilib. Layihə üzrə paytaxt Bakı da daxil olmaqla 62 şəhər və rayonda fəaliyyət göstərən sosial reabilitasiya mərkəzlərində autizm, daun sindromlu, eləcə də digər fiziki məhdudiyyətli uşaqlar reabilitasiya xidmətləri ilə təmin edilirlər. Həmçinin onların bacarıqlarının inkişaf etdirilməsi üçün hər biri ilə fərdi plan əsasında iş aparılır.

Nazirlik tərəfindən 8000 əlilliyi olan şəxs 40 mindən artıq protez-ortopedik və digər reabilitasiya vasitəsi ilə təmin edilib. 1082 Qarabağ müharibəsi əlilinə 10779 reabilitasiya vasitəsi verilib.

Dövlət başçısının tapşırığına əsasən, 2020-ci ilin dekabr ayından Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanaraq orqanlarını itirmiş hərbçilərin yüksək texnologiyalı elektron protezlərlə təminatı işlərini aparır. Artıq 164 hərbçi 173 ən müasir - 4-cü nəsil elektron protezlə təmin edilib ki, onlardan 149-u aşağı ətraflarını itirmiş qazilərdir.

Dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısına 2020-ci ildə 23 yeni növ də daxil edilib və siyahıdakı reabilitasiya vasitələri növlərinin sayı artıq 57-yə çatıb.

Əlilliyi olanların istedad və qabiliyyətlərinin aşkara çıxarılaraq cəmiyyətə tanıdılması məqsədilə 1997-ci ildən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və xeyir-duası ilə ümumrespublika səviyyəli sərgi və baxış-müsabiqələr keçirilir. Bu günlərdə isə Sosial Xidmətlər Agentliyi tərəfindən 3 Dekabr - Beynəlxalq Əlillər Günü ilə əlaqədar həmin kateqoriyadan olan şəxslərin əl işlərindən ibarət XI Ümumrespublika Yaradıcılıq Sərgi-Müsabiqəsi təşkil olunub.

Park-Bulvarda dekabrın 1-dən başlayan sərgi-müsabiqənin üç gün davam etməsi nəzərdə tutulub. Tədbirin məqsədi əlilliyi olan şəxslərin istedad və qabiliyyətlərinin cəmiyyətə təqdim olunması, yaradıcılıq imkanlarının və cəmiyyətə inteqrasiyasının dəstəklənməsidir. Sərgi-müsabiqədə Bakı və respublikamızın digər bölgələri üzrə 217 nəfər əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşağın ümumilikdə 1346 əl işi təqdim edilir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə icra olunan layihələr dövlətin həssas əhali qrupları ilə bağlı sosial hədəflərinə nail olunmasına mühüm dəstəkdir.

Heydər Əliyev Fondu tərəfindən əlilliyi olan şəxslərin reabilitasiyasına mühüm töhfələr verilir. Fondun dəstəyi ilə Bakının Yeni Günəşli yaşayış massivində yaradılan Uşaq Reabilitasiya Müəssisəsi sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasında mühüm rola malikdir.

Heydər Əliyev Fondu tərəfindən respublikanın müxtəlif bölgələrində Regional İnformasiya mərkəzləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün fəaliyyət göstərən 1 və 2 saylı Sosial Xidmət müəssisələrində ən müasir tələblərə uyğun yaşayış və reabilitasiya şəraiti yaradılıb.

Heydər Əliyev Fondunun, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və UNICEF-in təşkilatçılığı ilə keçirilən "İmkanlara məhdudiyyət yoxdur" təbliğat-təşviqat kampaniyası da bu kateqoriyadan olanların cəmiyyətə inteqrasiyasında mühüm vasitəyə çevrilib.

Birinci vitse-prezident Mehriban Əliyevanın daha bir təşəbbüsü kimi, 2021-ci ilin oktyabr ayında Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi açılıb. Mərkəz əlilliyi olan şəxslərin, digər həssas qrupların istedad və bacarıqlarının ortaya çıxarılaraq inkişaf etdirilməsi ilə onların cəmiyyət həyatında, ictimai-mədəni sferada fəal iştirakına şərait yaradılması işinə mühüm töhfədir.

Sosial Xidmətlər Agentliyi tərəfindən 2021-ci ilin ötən dövründə Vətən müharibəsi əlilləri də daxil olmaqla, ümumilikdə 2141 nəfər imtiyazlı şəxs bərpa-müalicə prosedurlarına cəlb olunmaları üçün sanatoriya-kurort və müalicə mərkəzlərinə yola salınıb.

2021-ci ilin 9 ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 2700-ə yaxın əlilliyi olan şəxs işlə təmin edilib. Ödənişli ictimai işlər proqramında isə 56 min nəfər çalışır ki, onlardan da 2400-dən çoxu əlilliyi olanlardır.

Azərbaycan Respublikası əlilliyi olan şəxslərlə bağlı mühüm beynəlxalq sənədlərə, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına qoşulub.

"Əlillərin hüquqları haqqında" Konvensiyada olan müddəaların həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 31 may 2018-ci ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun təsdiq edilib ki, bu da dövlətimizin belə vətəndaşlarına qayğısı deməkdir.

..."Danışan baxışlar", "qızıl əllər" sahibləri heç vaxt unudulmur, əksinə, onlar cəmiyyətimizin ən həssas təbəqəsi kimi daim diqqət və qayğıyla əhatə olunurlar. Axı hərəkətləri məhdud, söhbətləri "sözsüz və səssiz" olanları heç vaxt cəmiyyətdən kənar tuta bilmərik...

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

◆Dünya gündəmi



# Qlobal pandemiya reallıqları üzə çıxarır

## ÜST-ün Baş direktoru: "Həssas qrupa daxil olan insanlar peyvəndsiz qalır, bir sıra ölkələr həmrəyliyə maneəçilik törədir"

Ümumdünya Səhiyyə Assambleyası (ÜSA) pandemiyaların qarşısının alınması, hazırlığın təmin edilməsi və reaksiya tədbirlərinin görülməsi üzrə tarixi qlobal müqavilənin hazırlanması prosesinə başlamaq qərarına gəlib.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) əsas qərarverici orqanı olan ÜSA-nın ikinci xüsusi sessiyasında ÜST-ə üzv ölkələr pandemiyalara qarşı mübarizə üzrə tarixi sənədin hazırlanmasına dair razılaşma əldə ediblər. Bu barədə qərar ÜSA-nın İsveçrənin Cenevrə şəhərində keçirilən xüsusi sessiyasında qəbul olunub. 194 ölkənin iştirakı ilə qəbul edilmiş qərarda gələcəkdə pandemiyanın qarşısının alınması, ona hazırlığı və ictimai sağlamlıq sahəsində fövqəladə hallara reaksiyanı gücləndirmək məqsədilə qlobal prosesə başlamaq barədə razılıq ifadə olunub.

ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus bu qərarın tarixi xarakter daşıdığını, missiyası baxımından həyati əhəmiyyət kəsb etdiyini, bütün insanların rifahını və qlobal sağlamlıq arxitekturasını təkmilləşdirmək üçün indiki nəslə nadir fürsət yaratdığını bildirib.

### 73 ildən sonra keçirilən xüsusi sessiya

Səhiyyə Assambleyasının indiki xüsusi sessiyası 1948-ci ildə ÜST-ün yaradılmasından bəri keçirilən ikinci analoji tədbir idi. Forum "Bütün dünyanın səyləri birləşdirilsin" şüarı altında keçirildi.

ÜST-ün Nizamnaməsinin 19-cu maddəsi Ümumdünya Səhiyyə Assambleyasına Ümumdünya Səhiyyə Təşkilatının səlahiyyətinə daxil olan hər hansı məsələ ilə bağlı konvensiya və ya razılaşmalar qəbul etmək səlahiyyətini verir. 19-cu maddəyə uyğun olaraq indiyədək qəbul edilən yeganə saziş 2005-ci ildə qüvvəyə mindikdən sonra əhalinin tütündən qorunmasına xeyli kömək edən ÜST-ün Tütünə Qarşı Mübarizə üzrə Çərçivə Konvensiyasıdır.

### ÜST-ün Baş direktoruna tapşırıq verildi

Qəbul olunmuş qərara əsasən, yeni orqanın ilk iclası 2022-ci il martın 1-dək (iş metodlarının və müddətlərinin razılaşdırılması üçün), HDO-nun ikinci görüşü isə gələn ilin avqustuna qədər (sənədin işçi layihəsinin hazırlanmasının gedişatını müzakirə etmək üçün) baş tutacaq.

Qurum həmçinin müzakirələr çərçivəsində nəzərə alına biləcək açıq dinləmələr keçirəcək; nail olunmuş tərəqqi barədə hesabat 2023-cü ildə ÜSA-nın 76-cı sessiyasına göndəriləcək. Həmçinin ictimai dinləmələrin keçirilməsi, iş haqqında hesabatların dərc edilməsi və yekun layihənin 2024-cü ildə ÜSA-nın 77-ci sessiyasında təqdim edilməsi nəzərdə tutulur.

Bundan başqa, Ümumdünya Səhiyyə Assambleyası öz qərarında ÜST-ün Baş direktoruna HDO-nun müşavirələrinin çağırılmasını təmin etməyi və işin gedişində, o cümlədən Birləşmiş Millətlər Təşkilatı sisteminin orqanlarının, qeyri-dövlət qurumlarının və digər maraqlı tərəflərin iştirakının koordinasiyası yolu ilə yeni quruma kömək etməyi tapşırıb.

### Pandemiya qlobal sistemdəki bir çox qüsurları üzə çıxartdı

Gebreyesusun dediyinə görə, COVID-19 pandemiyası insanları pandemiyalardan qorumaq üçün qlobal sistemdəki qüsurları üzə çıxartdı. Belə ki, bir çox hallarda ən həssas qrupa daxil olan insanlar peyvəndsiz qalır, tibb işçiləri həyatları xilas etmək funksiyalarını yerinə yetirmək üçün lazımi texniki avadanlıqla təmin olunmurlar və bir sıra ölkələr qlobal təhlükə ilə mübarizə aparmaq üçün zəruri olan qlobal həmrəyliyə maneəçilik törədən eqosentrik yanaşmalar nümayiş etdirirlər.

Bununla belə, baş direktor deyib: "Peyvəndlərin sürətlə işlənib hazırlanması proqramlarından tutmuş, gələcək nəsilləri pandemiyaların təsirlərindən daha təhlükəsiz saxlamağa kömək edəcək qlobal razılaşmanı müzakirə etmək üçün ölkələrin öhdəlik qəbul etmələrinədək - elmi və siyasi əməkdaşlığın ilhamverici təzahürlərini müşahidə etdik".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 26 noyabr 2021-ci il tarixdə keçirilmiş "Məişət zorakılığından müdafiə vasitələrinə etimadın, övladlığagötürmənin təşviqi və həssas qruplardan olan şəxslərə cəmiyyətdə xüsusi diqqətin təbliği" adlı müsabiqənin qalibi "PR Agency" MMC, "Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan şəxslərin reabilitasiyasından sonra cəmiyyətdə adaptasiya olunması" adlı müsabiqənin qalibi fiziki şəxs Nəcəfova Məlahət Mahmud qızı və "PR Agency" MMC olmuşdur.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 30 noyabr 2021-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı təkrar müsabiqənin qalibi "Mərdəkan Reabilitasiya Pansionatı" PHŞ, "Sağlamlıq imkanları məhdud uşaqların inkişafının təmin olunması və monitorinqi sahəsində innovativ təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqənin qalibi "Regionların Sosial İqtisadi İnkişafına Dəstək" İctimai Birliyi, "Sağlamlıq imkanları məhdud uşaqların (autizm) sosial-reabilitasiyası ilə bağlı valideynlərin bacarıqlarının artırılması üzrə innovativ təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqənin qalibləri "Vətəndaş Cəmiyyətinin Regionlarda İnkişafına Dəstək" İctimai Birliyi və "Regionların Sosial İqtisadi İnkişafına Dəstək" İctimai Birliyi, "Sağlamlıq imkanları məhdud uşaqların (serebral iflic) sosial-reabilitasiyası ilə bağlı valideynlərin bacarıqlarının artırılması üzrə innovativ təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqənin qalibi fiziki şəxs Əliyev Vüqar Yusif oğlu olmuşdur.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən 17.11.2021-ci il tarixdə "Dezinfeksiya xidmətləri"nin satın alınması ilə əlaqədar elan edilmiş kotirovka sorğusu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 49.1-ci maddəsinin tələblərinə uyğun olaraq kotirovkaya cəlb edilən malgöndərənlərin (podratçıların) sayı 3-dən az olduğundan baş tutmamışdır.

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan istilik qazanxanalarına və sistemlərinə illik texniki xidmətlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 dekabr 2021-ci il saat 17:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan energetik qurğulara illik texniki xidmətlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 dekabr 2021-ci il saat 17:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti alternativ enerji mənbələrinə (generator və stabilizatorlara) illik texniki xidmətlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 dekabr 2021-ci il saat 17:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

*Tender komissiyası*







«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Cəmil Musayevə anası
**SƏRİYYƏ MUSAYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Cəmil Musayevə anası
**SƏRİYYƏ MUSAYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin kollektivi xidmətin şöbə müdiri Kamran Umudova atası
**QƏHƏD UMUDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mahmud Məmmədov "GünayBank" ASC-nin 4 saylı şöbəsinin müdiri Səyavuş Hüseynova anası
**RÜXSARƏ İSMAYILOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"GünayBank" ASC-nin rəhbərliyi və kollektivi bankın 4 saylı şöbəsinin müdiri Səyavuş Hüseynova anası
**RÜXSARƏ İSMAYILOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın şüa diaqnostikası üzrə həkimi Nərmin Məmmədovaya atası
**HİKMƏT MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın Stomatologiya bölməsinin müdiri Rəfi Məmmədova həyat yoldaşı
**İRADƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizam, Əli, Hacı Müşfiq və Rafiq Hüseynovlar, İlham, Vüqar və Tural İbrahimovlar, İslam, Müstəqim, Mircəfər və Mircəlil İsmayılovlar ailələri ilə birlikdə Bəhruz Nəzərova anası
**SARITEL QÜDRƏT QIZI KAZIMOVANIN**
Horadiz şəhərində vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5585
Sifariş 2462
Qiyməti 40 qəpik